# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 35 (3501) Cümə axşamı / 28 sentyabr - 4 oktyabr 2023-cü il Qiymәti 40 qәpik

MÜSAHİB

## “Rusiya ilə ehtiyatlı davranmalıyıq...”



**Tacəddin Mehdiyev,**
sabiq müdafiə naziri, general-mayor

***Sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyevlə 27 sentyabr - Şəhidlərimizin Anım Günündə hafta.az üçün etdiyimiz növbəti söhbətdə ordumuzun Yuxarı Qarabağdakı son antiterror əməliyyatının taktiki və strateji əhəmiyyəti, Rusiya “sülhməramlı”larının, separatçı rejim tör-töküntülərinin və Ernənistandakı revanşist, neofaşist dairələrin Azərbaycana qarşı təşkil edə biləcəyi yeni təxribatlar və dövlətimizin buna qarşı görə biləcəyi tədbirlərdən və s. bəhs etdik.***

*Azərbaycan səbirlə ermənilərə vaxt verdi ki, bəlkə onlar sülhə, Azərbaycanla inteqrasiyaya hazırlaşalar*

Səh. 3

# Ehtiramla anırıq...

***Azərbaycanın Vətən müharibəsinə başlamasından 3 il ötür. Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başlayıb. Dünən bütün ölkə boyu şəhidlərimiz xalqımız tərəfindən ehtiramla anıldı, bir daha onların öz canları bahasına yazdıqları qəhrəmanlıq salnaməsinə nəzər salındı. Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Həmvətənlərimizin bir çoxu şəhid olub, itkin düşüb, yaralanaraq sağlamlığını itirib. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilib. Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində 2908 hərbi qulluqçusu şəhid olub, 6 nəfər itkin düşmüş sayılır.***







Azərbaycan Ordusunun zəfər yürüşünə tab gətirməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törədib. Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su-Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulub.

2020-ci il sentyabrın 27-də Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə - 5 nəfər tamamilə məhv olub.

Oktyabrın 4, 5, 8, 11 və 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olub, 175 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olub, 112 nəfər yaralanıb, rayonda yerləşən mülki infrastruktur obyektləri, nəqliyyat vasitələri külli miqdarda ziyan görüb. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, ümumilikdə 12 292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilib. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük “Dəmir yumruq” əməliyyatı ilə torpaqlarını işğaldan azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub.

### Şevki Karabekiroğlu, türkiyəli professor, tarixçi:

- 27 sentyabr İkinci Qarabağ müharibəsində şəhid olanların Anım Günüdür. Şəhidlər yalnızca torpaqlarını azad etmədi, onlar insanlığa da örnək oldu. Azərbaycanlılar tarixdə də daim insanlığa örnək olacaq addımlar atıb. Ermənilər Azərbaycanın bu haqlı addımlarını beynəlxalq ictimaiyyətə səhv tanıdır. İşğal dövründə ermənilər azərbaycanlıları öz torpaqlarından zorla, işgəncələrlə çıxardılar. İndi isə Azərbaycan öz torpaqlarında suverenliyini tam bərpa edərkən görürük ki, orada yaşayan heç bir erməni əsilli sakinin burnu belə qanamadı. Onlar könüllü şəkildə öz maşınları ilə istədikləri yerə gedirlər. Burada iki millət arasındakı mədəniyyət və insanlıq fərqini görürük. Hələ də reallıqları görməyib, yalan danışanlar var. 2020-ci il 27 sentyabrda başlayan İkinci Qarabağ müharibəsi ilə Azərbaycan öz torpaqlarında 30 illik işğala son qoydu. Bu gün isə Qarabağ qanunsuz erməni silahlı birləşmələrindən təmizlənir. Azərbaycanın bu istiqamətdə yürütdüyü siyasəti, atdığı addımları təqdir edirik.

### Nizami Cəfərov, Milli Məclisin deputatı:

- Azərbaycan Vətən müharibəsində yalnız hərbi qələbə deyil, eyni zamanda, diplomatik və mənəvi qələbə də qazandı. Ermənilər öz imperialist havadarlarının köməyi ilə Azərbaycan torpaqlarını zəbt edəndə məqsəd orada yaşamaq deyildi. Məqsəd, sadəcə olaraq, bu regionda belə bir mühit yaratmaq idi ki, stabillik olmasın. Yeni yaranan müstəqil respublikalar, yəni Azərbaycan, Gürcüstan, Ermənistanın özü daim münaqişələr içərisində olsunlar, regionda müstəqillik olmasın, azadlıq hərəkatlarının qarşısı alınsın. Nəticə etibarilə, bu üç respublika, eləcə də Şimali Qafqaz görsün ki, hər hansı bir böyük gücə sığınmadan mövcud olmaq mümkün deyildir. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi onunla bağlı idi ki, regionda sülh yaransın, normal qonşuluq münasibətləri yaransın və azərbaycanlılar öz doğma torpaqlarında yaşasınlar. Biz bunu Ali Baş Komandan, prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bacardıq. Torpaqlarımızı düşmən işğalından azad etdik. Torpaqlarımızı geri qaytardıqdan sonra növbəti addım bu torpaqlarda yaşamaq, burada tarixi hüquqlarımızı bərpa etmək, bu torpaqları əkmək-becərmək idi.Vətən müharibəsində 44 gün ərzində zəfər çaldıq. Dünyada 44 gün ərzində böyük qələbə ilə nəticələnən müharibələr heç də həmişə olmur. Nizami Cəfərov bildirir ki, bizim xalqımızın, dövlətimizin apardığı müharibə ədalətli idi, haqq savaşı idi. Azərbaycan Vətən müharibəsində yalnız hərbi qələbə deyil, eyni zamanda, diplomatik və mənəvi qələbə qazandı.

Səh. 2

MÜSAHİB



**Sevinc Alızadə,**
“Zəfər yolu” Şəhid Ailələrinə və Qazilərə Dəstək İctimai Birliyinin sədri

■ Azərbayan xalqı cəbhədən gələn hər bir şəhidini alqışlarla, qəhrəman kimi dəfn edirdi

■ Müharibə bitəndən sonra Azərbaycan xalqı tam təhlükəsiz şəraitdə yaşayacaq

■ 27 Sentyabr müqəddəs Vətən Müharibəsi Qafqazda Azərbaycan torpağında erməni zülmünə “dur” dedi

Səh. 5

GÜNÜN FOTOSU...




**Ruben Vardanyan həbs edildi**

GÜNÜN SİTATI

*“Üç il ərzində Ermənistan Azərbaycanın uzatdığı əli geri itələdi”*



**Ceyhun Bayramov,**
Azərbaycanın Xarici İşlər naziri

KARİKATURA



**Ermənistanda hakimiyyət davası**

## Büdcədə neftin dəyəri

**Eyyub Kərimli,**
iqtisadçı-ekspert

Neftin qiymətində volatilliyin müşahidə olunması o deməkdir ki, qiymət arta da bilər, düşə də bilər.

Səh. 6

STATİSTİKA



**■ 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsi ilə 1 milyard 694.8 milyon manat vəsait daxil olub.**

Azərbaycanda banklardan xaricə göndərilən vəsaitin həcmi isə 415.8 milyon manata bərabər olub. Ötən ilin yanvar-avqust aylarına nisbətən sürətli pul köçürmə sistemləri vasitəsilə banklara daxil olan vəsaitin həcmi 2.2 dəfə və ya 2 milyard 66.2 milyon manat, banklardan xaricə köçürmələr isə 64.2% və ya 267.1 milyon manat azalıb.



Səh. 5

## Tezliklə Böyük Qayıdış Xankəndini də əhatə edəcək

**PREZİDENTİN İŞ GÜNÜ**

## Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.**

Görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparıldı. Yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini deyən Prezident İlham Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub. Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezidenti İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.

Dövlət başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır. Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirdi, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlət başçısı qeyd etdi ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır. Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulandı.

# Antiterror tədbirlərində bu qədər şəhid verdik



**Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 19-20-də Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirləri zamanı 192 hərbçi və 1 mülki şəxs şəhid olub, 511 hərbçi yaralanıb. Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Lokal antiterror tədbirləri zamanı Azərbaycan Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub. Şəhid olan hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər də mülki şəxsdir.

11 nəfərin şəxsiyyəti Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcək. Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanıb.

”Yaralıların ən qısa zamanda müalicəsi üçün yüksək səviyyəli peşəkar həkim briqadaları fəaliyyət göstərir və bütün zəruri tibbi tədbirlər görülür. Yaralı hərbçilərimizin tezliklə öz sağlamlıqlarına qovuşmasını arzu edirik. Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş bütün hərbi qulluqçularımızın əziz xatirəsini yad edir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah bütün şəhidlərimizə rəhmət eləsin”, - nazirlikdən qeyd olunub.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şəhidlərimizin adı Zəfər parkında əbədiləşəcək







***Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoydular.***

## Gündəm



Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək.

Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq. Zəfər Muzeyinin əsas girişində yaradılacaq “Dəmir yumruq” simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. “Dəmir yumruq” Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.

# Ehtiramla anırıq...

◂ əvvəli 1-ci səhifədə



Zəfər yürüşü sayəsində kəndlər, şəhərlər bir-birinin ardınca erməni işğalçılarından təmizlənib. Oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsi, oktyabrın 4-də Cəbrayıl rayonu, oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsi, oktyabrın 17-də Füzuli rayonu, oktyabrın 20-də Zəngilan rayonu, oktyabrın 25-də Qubadlı rayonu işğaldan azad edilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi unikalı əməliyyatla isə noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunub. Prezident İlham Əliyev Şuşanın işğaldan azad edilməsi xəbərini Şəhidlər xiyabanından Azərbaycan xalqına müraciətində bəyan edib. Dövlət başçısının 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla Azərbaycanda 8 Noyabr - Zəfər günü kimi təsis edilib. Prezident İlham Əliyev 2 dekabr 2020-ci il tarixdə sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Günü kimi təsis edilməsi haqqında Sərəncam imzalayıb. 27 sentyabr Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Anım Günü kimi qeyd edilir.

### Rəşad Bayramov, politoloq



Heç şübhəsiz, 27 sentyabr tarixi xalqımızın yaddaşından, o cümlədən hərb tariximizdən heç zaman silinməyəcək. Məhz həmin gün 32 ildən bəri davam edən Ermənistan-Azərbaycan münaqişəsinin həllində yeni mərhələnin başlanğıcı qoyuldu. Həmin tarixdə işğalçılıq və təcavüzkarlıq siyasətini davam etdirən, terrorçuluğu dövlət siyasətinə çevirən Ermənistanın quldur silahlı birləşmələri növbəti dəfə atəşkəs rejimini pozdu, qanlı əməllərini, sülhə, təhlükəsizliyə təhdid olan niyyətlərini yenidən gerçəkləşdirməyə cəhd etdi.

Ermənilərin xalqımıza qarşı düşmənçilik siyasəti 200 ildən artıq bir dövrdür ki, davam edirdi. Çar Rusiyasının dəstəyi ilə 1905-1907, daha sonra 1918-1920-ci illər ərzində xalqımıza qarşı xüsusi qəddarlıqla həyata keçirdikləri amansız qətllərini, 1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlının deportasiya olunmasını, Sovet Rusiyasının birbaşa dəstəyi ilə 1988-ci ildə daha 250 min azərbaycanlının öz doğma yurdundan qovulmasını və nəhayət, onminlərlə günahsız insanı qətl edərək, Azərbaycanın 20 faiz ərazisini işğal etməsini heç bir zaman unutmayacaq. Biz eyni şəkildə 30 il ərzində davam edən beynəlxalq riyakarlıq siyasətini də unutmamalıyıq. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunmuş ATƏT-in Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə deyil, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalaraq icra olunmamışdır. Məqsəd, təbii ki, status-kvonu qoruyub-saxlamaq və son anda Azərbaycanı işğal faktı ilə barışmağa məcbur etməkdən ibarət olmuşdur. İstər 2016-cı il aprel, istərsə də 2020-ci il Tovuz döyüşləri sübut etdi ki, Azərbaycan heç bir halda bu işğalla barışmayacaq. 27 sentyabr 2020-ci il tarixdə həm Ermənistan, həm də onlara havadarlıq edən beynəlxalq güclər qarşılarında nəyi bahasına olursa-olsun öz torpaqlarını düşmən tapdağından azad etməyə qərarlı olan güclü bir Azərbaycan gördülər. Gec də olsa anladılar ki, qarşılarında artıq 1990-cı illərin zəif, gücsüz, müdafiəsiz Azərbaycanı deyil, öz milli maraq və mənafelərini hər şeydən üstün tutan, bu yolda bütün çətinlikləri gözə alan və sədləri bir-bir səbirlə, əzmlə aşan Azərbaycan var. 32 ildir səbr edən, dözüm göstərən Azərbaycan xalqı, Azərbaycan Dövləti, Azərbaycan Ordusu bir andaca səfərbər və tək yumruq oldu və bununla da Qarabağ münaqişəsinin həllində hərb variantına keçildi. Bununla da 27 Sentyabr, həm də Vətən Müharibəsinin başlandığı gün kimi tarixə düşdü. 44 günlük müharibədə Ordumuzun qəhrəmanlığı ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, Azərbaycan qələbə qazandı və tarixi ədalət bərpa olundu. Azərbaycan Ordusu şəhidlərin qanını yerdə qoymadı və bir neçə gün bundan əvvəl həyata keçirilən antiterror tədbirləri nəticəsində bir daha bütün dünyaya öz gücünü göstərmiş oldu”.

### Tural İrfan, ilahiyyatçı



- Zəfəri, qələbəni, fəthi Allah hər dövlətə, hər xalqa nəsib etmir. Dövlətlər olub ki, yüz il savaşıblar, axırda heç biri qalib çıxmayıb. Elə çox uzağa getməyək, İraqla İran yaxın keçmişdə 8 il savaşdı, bir milyon insan həlak oldu. Axırda yenə də həmin sərhədlərə qayıtdılar. Allah Azərbaycan xalqına, dövlətinə zəfər nəsib etdi, özü də parlaq zəfər. Qurani-Şərifin “Fəth” surəsində bir ayə var. Bu ayə o vaxtdan Ağdam məscidində - mehrabın üstündə yazılıb. Heç ermənilər də silə bilməyiblər. Bilirsiniz, Həzrət Peyğəmbəri ata-baba yurdundan çıxarmışdılar. O, Mədinəyə sığınmışdı. Dostları, qohumları qalmışdı, ata-ana məzarı, Kəbə Məkkədə qalmışdı. Çox nigaran və narahat idi. Allah-Taala ona bu ayəni nazil etdi: ”Biz sənə açıq-aydın bir fəth, qələbə nəsib edəcəyik”. Elə də oldu. On ildən sonra Allah-Taala ona açıq bir fəth bəxş etdi. Yenidən öz yurdlarına döndülər. Bəlkə də Ağdam məscidinə o ayəni o zaman təsadüfən yazmayıblar. Məhz həmin ayədə deyildiyi kimi, biz yenidən öz torpaqlarımızı fəth etdik və geri döndük.

Anım Günü bizim qürur günümüzdür. Bugünədək məğlub və bədbin idik. Bu, bizim uşaqlara da pis təsir edirdi. Orta məktəbdə rayonların işğal tarixini əzbərlədirdilər. Bu gün həmin rayonların azad edildiyi günləri müəllimlər şagirdlərə öyrədir və o günləri bayram edirik. Bax bu, mənəvi yüksəlişdir. Qalib olanda insanların ruhyüksəkliyi olur, daha həvəslə yaşayırlar, yaradırlar. Cənab Ali Baş Komandan İlham Əliyev çox böyük iş gördü ki, Azərbaycan tarixində belə bir nailiyyət hələ olmamışdı. Tarix nəticəsinə görə qiymətləndirilir. Şah İsmayıl, Nadir şah çox işlər görüb, düzdür. Nəticə nədir? Onların gördüyü işlərin axır nəticəsi yenə də bugünkü sərhədlər çərçivəsində qalan Azərbaycan torpaqlarıdır. Cənab Prezident XXI əsrdə, bu qədər çətin dövrdə, özü də kafirlərdən torpaq qaytardısa, deməli, o, Nadirdən də İsmayıldan da üstündür. Çoxu ümidini, əlini üzmüşdü Qarabağdan. O, ölmüş ümidləri diriltdi. Xalqın əzilmiş qürurunu özünə qaytardı.

Ən nəhayət, Allah bu işi görməyi məhz cənab İlham Əliyevə nəsib etdi. Bunun özü də böyük şərtdir. Allah imamlara heç belə qələbə, fəthlər nəsib etməyib. Bunun özündə də bir hikmət var. Gələcək nəsillərə bax, bu şanlı şəxsiyyətimizi, şanlı tariximizi çatdırmalıyıq. Bizim Ordumuz əsl Peyğəmbər ordusudur. Azərbaycan Ordusu öz komandanına, dövlətinə sadiq olaraq son damla qanına qədər savaşdı və qalib oldu. Bizim şəhidlər Kərbəla şəhidləri kimi saf, mərd, cəsur, sadiq, imanlı insanlar idilər. Kərbəla şəhidləri hansı mərtəbədədirsə, bizim şəhidlər də oradadır. Şübhəsiz və qeyd-şərtsiz haqq uğrunda, Vətən uğrunda öldülər. Dini cəhətdən də götürəndə əsl şəhiddirlər. Yüzlərlə məscidin, ziyarətgahların, qəbirlərin kafir tapdağından azad olunmasını təmin etdilər. Bu qələbə təkcə Azərbaycanın deyil. Bu, bütün müsəlman aləminin, türk dünyasının parlaq zəfəri, qələbəsidir.

*✍ Tahirə*

# "Rusiya ilə ehtiyatlı davranmalıyıq..."

***Sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyevlə 27 sentyabr - Şəhidlərimizin Anım Günündə hafta.az üçün etdiyimiz növbəti söhbətdə ordumuzun Yuxarı Qarabağdakı son antiterror əməliyyatının taktiki və strateji əhəmiyyəti, Rusiya "sülhməramlı"larının, separatçı rejim tör-töküntülərinin və Ernənistandakı revanşist, neofaşist dairələrin Azərbaycana qarşı təşkil edə biləcəyi yeni təxribatlar və dövlətimizin buna qarşı görə biləcəyi tədbirlərdən və s. bəhs etdik.***

## Müsahib



**Tacəddin Mehdiyev,**
sabiq müdafiə naziri, general-mayor

***- Cənab general, sizinlə - Vətənimiz üçün həm şərəfli, eyni zamanda hüznlü bir gündə danışırıq - 27 sentyabr- 44 günlük müzəffər savaşımızın şəhidlərinin Anım Günündə. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan ordusunun yenə də, təəssüf ki, 200-ə yaxın şəhid verdiyi Qarabağın dağlıq hissəsindəki lokal, amma 3 min kvadrat kilometrlik ərazinin, demək olar ki, bütün perimetri boyu, yəni geniş, həm də 30 il üstəgəl son 3 il ərzində möhkəmləndirilçmiş minalanmış bir ərazidə keçirilmiş son antiterror əməliyyatlarını taktiki və strateji baxımdan necə dəyərləndirirsiz?***

- Bəli, Allah cəmi şəhidlərimizə rəhmət eləsin! Bütün xalqımıza başsağlığı diləyir, eyni zamanda "başını dik tut" deyirəm. Çünki doğrudan da ordumuz bütün çətinliklərə, maneələrə rəğmən çox uğurlu bir əməliyyat keçirib. Əlbəttə, istərdik ki, heç bir nəfər də itkimiz olmasın, amma itkisiz savaş mümkün deyil. Və adətən hamımız deyirik ki, Qarabağdakı separatçı-terrorçulara qarşı antiterror əməliyyatını çoxdan keçirmək lazım idi. Lakin görünür, dövlətimiz buna uyğun məqamın, vaxtın yetişməsini gözləyirdi.

Yəni Azərbaycan səbirlə ermənilərə vaxt verdi ki, bəlkə onlar sülhə, Azərbaycanla inteqrasiyaya hazırlaşalar. Lakin son 3 ilə yaxın müddətdə bütün dünya da gördü ki, Xankəndindəki separatçı rejim və onun nəzarət etdiyi minlərlə silahlı terrorçu sülh, barış yaranmasına imkan vermir, Azərbaycanın dinc vətəndaşlarına, polislərə, yol mühəndislərinə qarşı terror aktları həyata keçirirlər. Və artıq bıçaq sümüyə dirəndiyi bir məqamda Azərbaycan ordusu hücuma keçərək sözünü dedi və öz lazımi işini gördü.

Həmçinin hesab edirəm ki, bizi nə Rusiya, nə də ABŞ, Avropa qınaya bilər. Rusiya 1990-cı illərin əvvəli və sonunda Çeçenistana qarşı necə antiterror əməliyyat keçirdi? Tankla, topla, təyyarə ilə nəinki silahlı çeçenləri, dinc insanları da kütləvi şəkildə qətlə yetirdilər. Deməli, Rusiya antiterror əməliyyatı keçirə bilər, Azərbaycan keçirə bilməz? Və yaxud ABŞ, hansısa Avropa dövləti öz ərazisində silahlı separatçılıq olsa, antiterror əməliyyatı keçirməz. Sözsüz ki, keçirər və heç kəsdən, hansısa beynəlxalq gücdən, təşkilatdan icazə də almaz. Ona görə də ordumuzun son əməliyyatı arzuolunan və zəruri idi... Özü də ordumuz Rusiyanın Çeçenistanda etdiyi kimi, mülki əhalini hədəf almır, yalnız hərbi infrastrukturu və silahlı qüvvələri məhv edir...

***- I Qarabağ savaşının od-alovundan keçmiş bir peşəkar general kimi hazırda Qarabağı separatçı-terrorçu birləşmələrdən təmizləmə və tərksilah işlərini davam etdirən ordumuza hansı təklif və tövsiyələriniz var?***

- Əlbəttə, ordumuz bu saat elə bir səviyyədədir ki, bəlkə də heç bir tövsiyəyə ehtiyacı yoxdur. Sadəcə, mənim fikrim belədir ki,- sözsüz ki, dövlətimizin və ordumuzun rəhbərliyi bunları nəzərə alıb,- bu gün xüsusən keçmiş Dağlıq Qarabağ daxilində 2020-ci ildən bəri azad etdiyimiz və onlara bitişik ərazilərdə quruculuq işləri gedən, artıq soydaşlarımızın köçürüldüyü və ya polislərin, hərbçilərin, məmurların, onların ailələrinin, mühəndis və fəhlələrimizin yaşadığı məntəqələrimizin təhlükəsizliyini təmin etməliyik. Xüsusən də Şuşa, Laçın, Ağdam, Füzuli, Hadrut və s. kimi məntəqələrimizin təhlükəsizliyinin təminatı çox vacibdir...

44 günlük savaşdan bəri sizinlə söhbətlərimizdə dəfələrlə vurğulamışdıq ki, hələlik 37 kənd bir qəsəbəsindən rəsmən yalnız bir kəndi - Daşaltının azad olunduğu Şuşa rayonunun mərkəzinin, Şuşa şəhərinin, orada quruculuqla məşğul olan vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması üçün Rusiya "sülhməramlı"larının nəzarətində qalmaqla faktiki separatçıların əlində olan ətraf kəndlər mütləq ordumuz tərəfindən nəzarətə götürülməlidir. Çünki Şuşadan hava xətti ilə minaatan atəşi üçün də çox yaxın məsafədə olan erməni quldurları fürsət düşən kimi şəhərə zərbə endirib orada faktiki yaşayan hərbçi, polis və mülki vətəndaşlarımızın həyatı üçün təhlükə törədə bilərlər. Və son antiterror əməliyyatı zamanı, təəssüf ki, bu, özünü göstərdi. Şuşaya minaatanlardan atəş açıldı, bir neçə bina zədələndi və Şuşa Dövlət Qoruğunun əməkdaşı olan mülki vətəndaş da həlak oldu. Odur ki, Şuşanın ətrafındakı separatçı postları ləğv olunmaqla, silahlılar tərksilah olunmaqla yanaşı, hər kolun, hər daşın altı, hər dəlmə-deşik qarış-qarış yoxlanmalıdır ki, nə vaxtsa yenə də təxribat törətmək üçün düşmənin heç bir gizli silah-sursatı, imkanı qalmasın. Bundan əlavə, hesab edirəm ki, dövlətimiz artıq Şuşanın ətrafındakı strateji məntəqərələri, o cümlədən Kərkicahan qəsəbəsinin nəzarətə götürülməsini təmin edib və artıq Azərbaycan vətəndaşlarının əvvəllər olduğu kimi, indi də Ağdamdan Əsgəran və Xocalıdan keçməklə, yəni qısa yolla birbaşa Şuşaya gediş-gəlişi təmin olunacaq. Həmçinin Ağdərə, Sırxavənd, Çərəktar, Həsənriz kimi strateji məntəqələr nəzarətə götürülübsə, Tərtər-Ağdərə-Kəlbəcər yolunun da açılması, eləcə də ermənilərin son illər ağır ekoloji fəlakətə uğratdığı Sərsəng su anbarının nəzarətə götürülməsi də yaxın günlərin, bəlkə də saatların işidir...

***- Tacəddin müəllim, sizcə, necə oldu ki, dünənədək, yəni son təxminən 3 il ərzində Qarabağdakı separatçı silahlı birləşmələrə silah-sursat təminatında dəstək verən, onlara təlim keçən Rusiya "sülməramlı"ları birdən-birə 2023-cü il sentyabrın 19-20-dən bəri bizim, ordumuzun "yanında" durdu və öz silahlandırdığı separatçı-terrorçuları bu dəfə bizimlə bərabər tərksilah etməyə, eyni zamanda 2020-ci ilin 44 günlük savaşından sonra Ermənistandan geri- Qarabağa daşıdığı köçkün erməniləri bu dəfə öz helikopterləri ilə yenidən Ermənistana yola salmağa başladı? Bu metamarfoza necə baş verdi?***

- Zənnimcə, bu qəfil dönüşə Rusiyanı iki amil vadar etdi: birincisi, Azərbaycan dövlətinin və ordusunun gücü, ikincisi də, Paşinyanın timsalında Ermənistanın Kremldən qəti şəkildə Qərbə, Amerikaya tərəf üz döndərməsi...

Bununla belə, hesab edirəm ki, dövlətimiz Moskvanın davranışlarıyla ehtiyatlı olmalıdır. Məsələn, ermənilərin kütləvi şəkildə Yuxarı Qarabağdan Ermənistana köçməsi Rusiyaya sərf edən bir məsələdir. Nəyə görə? Ona görə ki, 10 minlərlə köçkünün İrəvana axışması ilə Moskva tərəfindən Paşinyanın devrilməsi və onun yerinə artıq Azərbaycanın ərazi bütövlüyünü tanımayan, "artsaxı" "azad" etməyə çalışan Köçəryan, Sərkisyan tipli bir fiqurun gətirilməsi şansı artacaq. Yadımıza salaq ki, 1988-1992-ci illərdə Ermənistan, Yuxarı Qarabağ və ətraf rayonlardan elə həmin Rusiyanın dəstəyi ilə erməni silahlı birləşmələrinin hücum və qətliamları nəticəsində yüz minlərlə soydaşımızın didərgin düşərək Bakıya axışması bir neçə dəfə ardıcıl hakimiyyət dəyişikliyinə və xaosa səbəb oldu. İkincisi, Rusiya "sülhməramlı"larının komandanlığı maksimum çalışacaq ki, Xankəndində də ermənilərin xeyli hissəsi qalsın. Çünki əgər Xankəndindən də ermənilərin hamısı köçsə, o halda Rusiya "sülhməramlı"larına ehtiyac qalmayacaq və onlar da tezliklə Azərbaycan torpağını tərk etməyə məcbur olacaqlar.

Odur ki, ruslar bütün vasitələrlə erməniləri dilə tutmaqla, onlara qayğı göstərməklə onlardan azı 15-20 min nəfərin Xankəndində qalmasını təşkil edəcəklər Bu da bizim üçün ikinci bir problem yarada bilər?

Amma hətta ermənilərlə yanaşı, "sülhməramlı"lar da bir neçə il Xankəndində, Xocalıda qalsa belə, bizim onların qarşısında üstünlüyümüz ondadır ki, artıq Xankəndi də daxil olmaqla Yuxarı Qarabağın bir çox strateji məntəqələri, o cümlədən Ağdərə, Sırxavənd, Xankəndi ətrafındakı Kərkicahan, Malıbəyli, Xəlfəli və s. hərbi cəhətdən nəzarətimizə götürülüb...

Mən dövlətimizin o siyasətini də alqışlayıram ki, Qarabağdakı ermənilərə müraciət edir ki, kimlər Azərbaycan vətəndaşlığını qəbul edib yaşayırsa, qalıb yaşasınlar, onların bütün hüquqları təmin ediləcək Qoy bütün dünya anlasın ki, Azərbaycan öz torpağındakı ermənilərə qarşı heç bir etnik təmizləmə, soyqırımı həyata keçirmir?

> *"Azərbaycan səbirlə ermənilərə vaxt verdi ki, bəlkə onlar sülhə, Azərbaycanla inteqrasiyaya hazırlaşalar*

Bütün hallarda həm Rusiya ilə, onun "sülhməramlı"larıyla, həm də ermənilərin arasındakı revanşist, separatçı, işğalçı xislətli qruplarla ehtiyatlı olmalıyıq ki, gələcək üçün torpaqlarımızda separatizmin heç bir közərtisi də qalmasın...

***- Hətta belə bir versiya da var ki, 44 günlük savaşdan sonra olduğu kimi, indi də Qarabağda vəziyyət bir az stabilləşən kimi Rusiya Qarabağdan köçmüş on minlərlə erməninin yenidən Azərbaycan torpaqlarına qayıtması üçün çalışa bilər?***

- Ola bilər. Bu da mümkündür. Ancaq bu dəfə onların qayıtması çətin olacaq. Çünki 2020-2021-ci illərdə Ermənistanla sərhədimizdə "Laçın" sərhədnəzarət məntəqəsi qurulmamışdı və "sülhməramlı"lar öz bildiklərini edirdilər. Lakin indi həmin məntəqə var və Ermənistandan gələn hər bir erməni oradan keçib Xankəndinə gələ bilməyəcək.

***- O da mümkündür ki, Qarabağdan köçmüş ermənilər kütləvi şəkildə Azərbaycan vətəndaşlığını qəbul edərək burada yaşamaq istədikləri haqda müraciət edə bilərlər və bu halda biz onları sərhəddən buraxmalı olarıq Və belə bir durumda, eyni zamanda Ermənistanda Paşinyanın yerinə yenidən Qarabağ klanının hakimiyyətə gətiriləcəyi halda gələcək üçün Azərbaycan torpaqlarında yenidən separatizm təhlükəsi yarana bilər?***

- Bəli, Rusiyadan da, Ermənistandan da bizə qarşı hər cür təhlükə gözləmək olar. Amma yaxşı ki, dövlətimiz və ordumuz 1990-cı illərdəkindən qat-qat güclüdür Sadəcə, ayıq, ehtiyatlı və qətiyyətli olub hər cür hiylə və təxribatın qarşısını almaq gərəkdir...

***- Bəs necə hesab edirsiz, Qarabağdan köçən 20-30 min erməni İrəvanda Paşinyanı devirmək üçün Rusiyaya kifayət edəcəkmi?***

- Belə düşünürəm ki, Rusiya var gücü ilə Ermənistanda Paşinyanı devirərək yenidən Rusiya meyilli bir hakimiyyət qurmağa çalışacaq. Putin hələ Vladivostokdakı çıxışında Paşinyanın devrilməsi üçün siqnal verib. O dedi ki, "Ermənistandan Qarabağa görə bizdən nə istəyir; əgər sizin baş nazir keçmiş Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bildiribsə, biz nə edə bilərik?"...

Lakin o da var ki, Paşinyanın yerinə Köçəryanın, Sərkisyanın dəstələrindən elə bir qatı millətçi, Moskvanın köləsi olan erməni gələ bilər ki, o, Azərbaycan xalqı üçün Paşinyandan qat-qat pis və təhlükəli ola bilər. Hesab edirəm ki, hazırda Ermənistanın başında Paşinyanın olması bizə sərfəlidir. Çünki əvvəla, dediyimiz kimi, o, Yuxarı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. İkincisisi də, Qərbyönlüdür və Rusiyadan uzaqlaşmaq siyasətini yürüdür...

Düzdü, Moskvaya, Putinə güvəndiklərindən Köçəryanın, Sərkisyanın tərəfdarları olan Qarabağ klanının İrəvanda hakimiyyəti ələ almaq üçün müəyyən qədər şansları var. Və hazırda Qarabağdan köçən, evini-eşiyini itirmiş və burada Azərbaycana qarşı döyüşmüş ermənilər İrəvandakı Rusiyayönlü Köçəryan, Sərkisyan tərəfdarlarına qoşulub etirazçı kütləni daha da aqressivləşdirə bilər... Ancaq onu da nəzərə almaq lazımdır ki, artıq Ermənistan cəmiyyəti də bu 30 ildən çox müddətdə yaxşı anlayıb ki, Qarabağ klanından, Köçəryanlardan, Sərkisyanlardan Ermənistana zərərdən başqa heç bir xeyir dəyməyib. Və ermənilər bilir ki, belələri hakimiyyətə qayıtsa, Rusiyanın fitvasıyla yenidən övladlarını səfərbər edib "artsax uğrunda" döyüşə göndərəcəklər. Ermənilərin isə çoxuna oğullarının Qarabağda ölməsi lazım deyil. Bütün bunlara görə, zənnimcə, Ermənistan əhalisinin əksəriyyəti hələ də Paşinyanı dəstəkləyir...

İkincisi də, belə düşünürəm ki, ABŞ boş yerə Ermənistanda hərbi təlim keçirmədi. Ağ Ev Paşinyanın hakimiyyətdə qalmasında çox maraqlıdır. Odur ki, Amerika diplomatiyası və kəşfiyyatı var gücü ilə onu qoruyacaq, devrilməsinə imkan verməyəcəklər. ABŞ olan yerdə Rusiya nəsə edə bilməyəcək...

***- Cənab general, indi, yaxud bir neçə il sonra Kremlin İrəvanda özünə sadiq qüvvələri hakimiyyətə gətirəcəyi təqdirdə Ermənistan yenidən Rusiyaya, həm də Fransa, İran, Hindistanın dəstəyinə arxalanıb Azərbaycana qarşı hərbi əməliyyatlara başlamağa cürət edərmi?***

- Əminəm ki, heç vaxt nə Fransa, nə Hindistan, nə də İran öz canlı qüvvəsini Ermənistan uğrunda ölümə göndərməz...

***- Söhbət həmin ölkələrin yalnız silah-sursat, texnika ilə köməyindən gedir...***

- Heç bunun da faydası olmaz. Çünki artıq Azərbaycan ordusu olduqca güclü bir ordudur. Türkiyə kimi qardaşımızın, Pakistan kimi dostlarımızın da, ən azı, böyük siyasi-mənəvi dəstəyi var. Ona görə də mən inanmıram ki, hətta revanşistlər hakimiyyətə gəlsələr belə, Ermənistan yaxın gələcəkdə Azərbaycana genişmiqyaslı hücum etməyə təşəbbüs göstərə... Sadəcə, o var ki, əgər İrəvanda hakimiyyətə Rusiyayönlü hakimiyyətə gələrsə, artıq Paşinyanın Azərbaycanla, Qarabağla bağlı verdiyi bütün qərarlar, o cümlədən Yuxarı Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanıması məsələsi ləğv edilə və "miatsum", "müstəqil artsax", "böyük ermənistan" şüarları yenidən gündəmə qayıda bilər... Bu halda Moskvanın 1988-1991-ci illərdə tətbiq etdiyi ssenarini tədricən yenidən işə salması, Qarabağda da qalan ermənilər arasında yenidən separatçılığı qızışdırmağa çalışması nəzəri cəhətdən mümkündür. Ancaq, dediyim kimi, artıq güclü dövlət, ordu və iqtisadiyyata malik Azərbaycan ayıq-sayıq, tədbirli və qətiyyətli olsa, bütün ölkədə olduğu kimi, işğaldan azad ərazilərdə, xüsusən də ermənilərin yaşayacağı Qarabağ torpaqlarında da qanunun aliliyini və gücünü tam təmin etsə, heç bir xarici və daxili təxribatla heç bir güc dövlətimizə, xalqımıza qarşı öz məkrli məqsədlərinə çata bilməz...

✍ **Sultan Laçın**

---

## Müzakirə

***Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin oktyabrın 5-də İspaniyanın Qrabada şəhərində planlaşdırılan görüşü regionda cərəyan edən son hadisələrin fonunda birmənalı qarşılanır. Ekspertlər yaranmış situsiyada İspaniyanın Ermənistanın sülh müqaviləsinin imzaladığı Avropa məkanı olaraq da yadda qala biləcəyini ehtimal edir. Gözləntilər müxtəlifdir. Politoloq Natiq Cəfərli bildirib ki, Azərbaycanın öz ərazisini terrorçulardan təmizləmək üçün zərgər dəqiqliyi ilə apardığı son 24 saatlıq əməliyyatdan sonra tamamilə yeni bir situasiya yaranıb:***

# Sülhə ümid verən Qranada görüşü

"Ermənistan Azərbaycanda baş verən bu prosesdən özünü tamamilə kənara çəkdi. Azərbaycan ərazisində heç bir ordu birləşmələrinin, əlisilahlıların olmadığını elan edərək, bu məsələyə hərbi yöndən qarışmayacağını elan etdi. Bu, bir ilk idi və Azərbaycan Prezidenti də çıxışında bunu qeyd etdi.

İndiki yaranmış geosiyasi situasiyadan və vəziyyətdən belə məlum olur ki, artıq Paşinyanın Moskvaya, oradan gələn təhdidlərə baxaraq, Azərbaycan-Ermənistan liderlərinin ciddi razılaşmalar əldə etməsi üçün mühit formalaşdırılıb.

Ekspert Azərbaycanın mövqeyinin dəyişməz olduğunu deyib. Bildirib ki, əsas məsələ sülh müqaviləsinin Azərbaycan Xarici İşlər Nazirliynin Ermənistana təqdim etdiyi 5 baza prinsipi əsasında imzalanmasıdır:

"Beynəlxalq hüquq normalarına uyğun olaraq dövlətlər qarşılıqlı surətdə ərazi bütövlüyü, sərhədlərin toxu-



sülh müqaviləsini bağlamaq, yaxud hansısa protokolları imzalamaqdan kənarda qalmağa ehtiyacı qalmayıb. Rusiya ilə münasibətlər kifayət qədər gərginləşib. Ona görə də bu danışıqlar zaman hansısa sənədlərin imzalanması üçün unikal şans yaranıb. Bu, qarşılıqlı ərazi bütövlüyünün tanınması ilə bağlı protokol ola bilər.

Bu bəyanat verilsə də, belə protokollar olmayıb. Ona görə də hər hansı razılaşmanın imzalanması ehtimalı daha yüksəkdir. Əgər Ermənistan tərəfi səmimi şəkildə bu məsələnin həllində maraqlıdırsa, oktyabrın əvvəlində baş tutacaq görüşdə hansısa ciddi protokollar imzalana bilər. Bu da gələcəkdə sülh quruculuğu üçün təməl yarada biləcək ciddi sənəd olacaq".

Politoloq bildirib ki, Azərbaycan üçün müxtəlif platformalarda danışıqların aparılması çox doğru qərardır. Avroapa Birliyini, Qərbi bu proseslərdən kənarda qoymaq doğru deyil. O zaman Rusiya yeganə monopolist moderator ola bilər ki, bu da maraqlarımıza uyğun deyil. Bu, razılaşdırılmış bir görüşdür. Sadəcə, şərait yetişib ki, bu görüşdə ciddi nəticələr əldə etmək mümkündür. Paşinyanın itirəcəyi nəsə yoxdur. Rusiya ilə münasibətlərin kəskinləşməsi fonunda Qərbdə hər hansı müqavilənin imzalanması onlar üçün problem olmamalıdır.

■ **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti, politoloq Mətin Məmmədlinin sözlərinə görə, əsas məsələ Qərbin yeni situasiyada yeni siyasət ortaya qoymasıdır.**

Ekspet bildirir ki, antiterror əməliyyatından sonra, artıq bölgədə yeni vəziyyət yaranıb. Regionda olan separatçı regimin qalıqları süquta uğrayıb. Qeyri-qanuni hərbi birləşmələr artıq buraxılıb. Bu vəziyyət Ermənistan-Azərbaycan arasında danışıqlar prosesinə ciddi töhfə verir. Qarşıdakı görüşdə də

> *"Əgər Ermənistan tərəfi səmimi şəkildə bu məsələnin həllində maraqlıdırsa, oktyabrın əvvəlində baş tutacaq görüşdə hansısa ciddi protokollar imzalana bilər*

> *Vəziyyət Ermənistan-Azərbaycan arasında danışıqlar prosesinə ciddi töhfə verir*

nulmazlığı prinsiplərinə hörmət etməli, bir- birlərinə qarşı torpaq iddialarından imtina etməli, təhdid, hədə tonundan imtina edilməlidir. Yəni normal münasibətlərin qurulması üçün təməl məsələ ölkənin ərazi bütövlüyünün, artıq sənədlərdə imzalanması ilə tanınmasıdır".

M.Məmmədli qeyd edir ki, Ermənistan siyasətinin bir-birinə zudd mövqeləri artıq bizə məlumdur. O, son illərdə də Ermənistan hökumətinin bir-birini təkzib edən kifayət qədər ziddiyyətli mövqelər nümayiş edirdiyini önə çəkərək, bu ölkənin hansı addımı atacağı ilə bağlı dəqiq fikir bildirməyi mübahisəli sayıb:

"Hər halda irəli getmək üçün müəyyən bir mühit formalaşıb. Avropa iki ölkə arasında sülhə nail olmaq istəyir. Təəssüf ki, Avropanın, Qərbin bu məsələyə ikili yanaşması var və bu da Ermənistan-Azərbaycan arasında davamlı sülhün yaranmasına mane olur.

▸▸ Səh. 5

# Əmək münasibətləri

## Layihə

***Bu gün müxtəlif sektorlarda fərqli peşə sahibi kimi fəaliyyət göstərən kifayət qədər insan var. Həmin fəaliyyət növünün gerçəkləşdirildiyi iş prosesi isə müvafiq əməkhaqqları ilə dəyərləndirilir. Etiraf olunmalıdır ki, insanların həyat və iş şəraitlərini, xarakterlərini və s. nəzərə alsaq bəzi hallarda onlar işdən çıxmaq məcburiyyətində qalırlar, yaxud da işəgötürən tərəfindən məcburi şəkildə ərizə yazdırılaraq işdən kənarlaşdırılırlar. Təbii ki, öz hüquqları barədə məlumatlı olan vətəndaş qanunsuz işdən çıxarılma halı olduqda məhkəməyə üz tutaraq haqqını tələb edir və əksər hallarda da məhkəmə vətəndaşın xeyrinə qərar çıxarır.***




Bəzi vətəndaşlar da olur ki, onlar öz hüquqlarını bilmədiklərindən işəgötürənin qanunsuz qərarı ilə barışmalı olurlar. Nəticədə isə maddi zərərlə üz-üzə qalırlar.

Maraqlıdır, bu kimi hallar mövcud qanunvericilikdə necə tənzimlənir? Bu zaman işəgötürən şəxslər və ya şirkət tərəfindən işçilərə hansısa təzminatlar ödənilməlidirmi?

Qeyd edək ki, ölkəmizdə işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətləri Əmək Məcəlləsi ilə tənzimlənir. Məcəllənin 10-cu fəsli əmək müqaviləsinə xitam verilməsinin əsaslarını və qaydalarını əhatə edir. Məcəllənin 68-ci maddəsinin 2-ci bəndində əmək müqaviləsinə xitam verilməsinin əsasları müəyyən olunub. Buraya işdən çıxmanın 6 halı daxil edilib:

*a) tərəflərdən birinin təşəbbüsü;*

*b) əmək müqaviləsinin müddətinin qurtarması;*

*c) əmək şəraitinin şərtlərinin dəyişdirilməsi;*

*ç) müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar;*

*d) tərəflərin iradəsindən asılı olmayan hallar;*

*e) tərəflərin əmək müqaviləsində müəyyən etdiyi hallar.*

"a" bəndində tərəflərdən birinin təşəbbüsü işəgötürən üçün əmək müqaviləsinə xitam vermək üçün əsas deyil. Konkret desək, işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsaslarını Məcəllənin 70-ci bəndi müəyyən edir.

Azərbaycan Respublikasının Əmək Qanunvericiliyi işçinin və işəgötürənlərin hüquqlarının yer aldığı kifayət qədər geniş sistem şəklində tərtib olunub. Burada işçinin hüquqları daha üstünlük təşkil edir. Lakin buna baxmayaraq işçilər öz hüquqlarını bilmədiklərinə görə, işə götürən şəxslər də onların hüquqi savadsızlığından istifadə edərək bəzən qanunvericiliyin tələblərini tam şəkildə tətbiq etmirlər. Əslində ilkin mərhələdə işçinin əmək müqaviləsinin bütün xırdalıqları ilə yəni iş saatı, iş şəraiti və digər şərtləri ilə tanış olmaq hüququ var. Bəzi hallarda bu qaydaya əməl olunmasa da lakin müqavilənin bir nüsxəsi işçiyə verilməlidir. Eyni zamanda, işçi imzaladığı qaydalara tam şəkildə əməl edərək digər işlərin görülməsində iştirak etdiyi zaman əlavə əmək haqqı tələb edə bilər. İşdən azad olunma mərhələsində isə əgər işçi öz təşəbbüsü ilə işdən azad olmaq istəyirsə ən azı bir ay öncədən rəhbərliyə məlumat verməlidir. Əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsi isə əmək məcəlləsinin 70-ci maddəsinin tələblərinə uyğun gerçəkləşdirilir. Müəssisə ləğv edildikdə, işçilərin sayı və ya ştatları ixtisar edildikdə, sınaq müddəti zamanı işçinin peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə, işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, işçi işləmə yaş həddinə çatdıqda mövcud prosesin icrasına başlanıla bilər. Lakin bəzən mövcud proseslərin gedişatı zamanı işçilərin hüquqları çox kobud şəkildə pozulur. Tutaq ki, işəgötürən işçini işdən azad etmək istəyəndə ona təzyiq göstərərək öz istəyi ilə ərizə yazmasını tələb edir. Halbuki işçi çoz nizam-intizamlı, öz işini müvafiq müqaviləyə uyğun şəkildə davam etdirən kadr olsa da, öz istəyi olmadan ərizə yazması nəticəsində əmək məcəlləsinin 68-ci maddəsinə uyğun olaraq işçinin əmək müqaviləsinə xitam verilir. Eyni zamanda əgər işə götürən 70-ci maddənin A və B bəndinə (Müəssisə ləğv edildikdə, işçilərin sayı və ya ştatları ixtisar edildikdə)əsasən işçini işdən azad etmək istəyirsə o, işçinin əmək təcrübəsinə uyğun olaraq onu əvvəlcədən məlumatlandırmalıdır.Yəni müəyyən müddətdən sonra işçini işdən azad edəcəyi ilə bağlı ona xəbərdarlıq etməlidir. Əks təqdirdə isə işəgötürən vaxtından əvvəl öz təşəbbüsü ilə əmək müqaviləsinə xitam verirsə işçinin əmək stajına müvafiq şəkildə kompensasiya ödəməlidir.

Hazırda işəgötürənlərin işçidən daha asan "qurtulmaları" üçün əl atdıqları yollardan biri də işçilərlə müddətli əmək müqaviləsi bağlamaqdır. Əmək Məcəlləsinin 45.4-cü maddəsinə görə, işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda müəyyən istisnalarla əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır. Eyni zamanda, Məcəllənin 73-cü maddəsinə görə, müddətli əmək müqaviləsinin müddəti qurtardıqda xitam verilir. Lakin müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqdan sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur. 45.5-ci maddəyə görə isə müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edərsə, müddətsiz əmək müqaviləsi hesab edilir.

Mövcud qanunvericiliyə görə, bütün fərdi əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır. Əmək Məcəlləsinin 292.2-ci maddəsinə görə, pozulmuş hüquqlarının bərpa edilməsi barədə işçi məhkəməyə, yaxud bu Məcəllənin 294-cü maddəsində nəzərdə tutulmuş məhkəməyə qədər əmək mübahisələrini həll edən müvafiq orqana müraciət edə bilər (Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan kollektiv müqavilələrdə nəzərdə tutulmuş hallarda müəssisələrdə həmkarlar ittifaqları təşkilatının nəzdində yaradıla bilər). Məhkəməyə qədər əmək mübahisələrinə baxan orqanın çıxardığı qərar işçini qane etməzsə, həmin mübahisənin həlli üçün məhkəməyə müraciət edə bilər.

### Mövcud qanunvericilikdə həm də işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və hallar da müəyyən edilib

Bu halda məhkəməyə müraciət etmək üçün müəyyən edilmiş iddia müddəti məhkəməyə qədər əmək mübahisələrinə baxan orqanın müvafiq qərar qəbul etdiyi gündən başlanır. Burada ən vacib məqam məhkəməyə müraciət müddətinin ötürülməməsidir. Belə ki, Məcəlləyə görə, işçi hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 təqvim ayı ərzində məhkəməyə müraciət edə bilər. Hüququnun pozulmasının aşkar edildiyi gün, işçiyə müvafiq əmrin, (sərəncamın, qərarın), əmək kitabçasının, haqq-hesab sənədlərinin (kitabçasının, vərəqəsinin, çekinin) verildiyi gündür.

■ **Mövcud qanunvericilikdə həm də işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və hallar da müəyyən edilib.** Beləliklə, hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin, yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərin, əmək qabiliyyətini müvəqqəti itirən işçilərin, işçinin şəkərli diabetlə və ya dağınıq sklerozla xəstə olması səbəbinə görə, həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə, öhdəsində sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I dərəcə əlilliyi olan ailə üzvü olan işçilərin, məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində işçilərin, müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində müalicə keçən əlillərin əmək müqavilənin ləğv edilməsi qadağandır.

İxtisarlar zamanı kimlərin işdə qalmasına üstünlük verildiyinə gəlincə, bu siyahıya şəhid ailəsinin üzvləri, müharibə iştirakçıları, əsgər və zabitlərin arvadı (ərinə), öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlar, həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslər, xüsusi məcburi köçkün onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslər, kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslər daxildir.

*✍ **Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi, mədəniyyət səviyyələrinin yüksəldilməsi

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Ordusu Qarabağda lokal antiterror tədbirləri zamanı yüksək peşəkarlıq göstərərək ancaq hərbi hədəfləri məhv edib. Bunu xarici işlər naziri Ceyhun Bayramov deyib. O bildirib ki, heç bir yaşayış məntəqəsinə zərər vurulmayıb: "Ermənistan silahlı qüvvələrinin birləşmələr bir gün davam edən lokal aniterror tədbirlərinin nəticəsində tələblərimizi qəbul etməyə məcbur oldular".

■ Antiterror tədbirləri zamanı şəhid olan hərbçilərlə bağlı sosial təminatlar vaxtında və keyfiyyətlə icra olunacaq. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. O bildirib ki, bu istiqamətdə sosial təminat və digər tədbirlər həyata keçiriləcək: "Nazirliyin bütün müvafiq qurumları ailələrlə görüşlərə başlayıblar, müvafiq sənədlər toplanır. Qısa müddətə bütün sosial hüquqlar təmin ediləcək".

■ Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) 2024-cü ildə Azərbaycanda real ümumi daxili məhsulun (ÜDM) 2.5% artacağını proqnozlaşdırır.

Bu göstərici Bankın may ayındakı proqnozu ilə müqayisədə 0.2 faiz bəndi azdır. Qeyd edək ki, EBRD bu il üçün də Azərbaycanda iqtisadi artım proqnozunu azaldıb.



■ Fransanın Nigerdəki səfiri Silven İtte bu gün Niamey şəhərini tərk edərək Fransaya qayıdıb. Bu barədə yerli mənbələr xəbər veriblər. Məlumatda qeyd olunur ki, Silven İtte bir neçə saatdan sonra artıq Parisdə olacaq. Hələlik Fransa rəsmiləri bu məlumatı təsdiqləməyiblər.

■ İtaliyanın Neapol şəhəri yaxınlığında yerləşən vulkanik ərazidə 4.2 maqnitudalı zəlzələ baş verib. Bu barədə İtaliya Milli Geofizika və Vulkanologiya İnstitutu məlumat yayıb. Seysmoloqların məlumatına əsasən, zəlzələnin ocağı 3 kilometr dərinlikdə yerləşib və titrəyişlər Neapol və ətraf ərazilərdə daha aydın hiss edilib.

■ İraqın Naynava əyalətində (ölkənin şimalında) baş verən yanğın nəticəsində ölən və yaralananların sayı 450 nəfərə çatıb. Bu barədə İraq Qızıl Aypara Cəmiyyəti X sosial şəbəkəsində məlumat yayıb. "Toy mərasiminin keçirildiyi zalda baş verən yanğın nəticəsində ölən və yaralananların sayı 450-yə çatıb. Faciə Mosulun şərqində yerləşən Əl-Həmdaniyyə (həmçinin Bəhdidə kimi tanınan) şəhərində baş verib", - məlumatda deyilir.



■ Fransa Ermənistanın Sünik (Zəngəzur) bölgəsində konsulluq açacaq. Bu barədə Fransa xarici işlər naziri Ketrin Kolonna ölkəsinin ermənləri qorumaq üçün nə etməsi barədə suala cavabında deyib. "Biz Ermənistanla müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmişik. Fransa səfirliyində hərbi attaşe olacaq. Tezliklə sərhəddə yerləşən Zəngəzur bölgəsində konsulluq mərkəzi açacağıq", - Kolonna bildirib.

Çinin ən böyük sənaye kompaniyalarının ümumi gəliri yanvar-avqust aylarında 4,656 trilyon yuan (637 milyard dollar) azalıb ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 11,7 faiz təşkil edir. Bu barədə Çin Dövlət Statistika İdarəsi məlumat yayıb. Statistika idarəsi iri müəssisələrə illik gəliri 20 milyon yuandan çox olan sənaye kompaniyalarını aid edir. Tənəzzül 41 iqtisadi sahədən 11-də müşahidə olunur.

# Ermənistan uğrunda ABŞ və Rusiyanın mübarizəsi uzanacaq

**"Paşinyanın avrointeqrasiya planları, ölkədə anti-Rusiya təbliğatı, Rusiya potranajında olan Ermənistanın da üzvü olduğu təşkilatların əhəmiyyətsizliyinin önə çıxarılması, Qərbin istəyinə uyğun olaraq Rusiyanın Ermənistandan çıxarılması üçün bütün mümkün proseslərə start verilməsi və son olaraq Rusiyanın Ukraynaya təcavüzü ilə əlaqədər Beynəlxalq Cinayət Məhkəməsinin Prezident Vladimir Putinin həbsi haqqında qərarının icrasını mümkün edən "Rim statutu"nu Ermənistanın ratifikasiya etməsi, Rusiyanın Paşinyan hakimiyyətinə qəzəb və nifrətini son dərəcədə artırıb".**

Bunu hafta.az-a hüquqşünas, siyasi ekspert Vüqar Dadaşov Cənubi Qafqaz regionunun real geosiyasi vəziyyətinə uyğun olaraq, Rusiyanın Ermənistandan çıxma ehtimalı və burada qarşıdurmaların hansı istiqamətdə inkişaf edəcəyi ilə bağlı şəhrində bildirib.

Ekspert eyni zamanda qeyd edib ki, 2020-ci il Vətən müharibəsindən sonra Ermənistanda baş nazir Nikol Paşinyana qarşı münasibət mənfiyə doğru dəyişsə də, ümumən əhali tərəfindən dəstəklənib. Məhz buna görə də müharibədən sonra keçirilən seçkilərdə Paşinyanın təkrar qələbə qazanması elə Ermənistandakı əhalisinin çoxluğunun dəstəyinə bağlı faktordur. Vətən müharibəsindən sonra Paşinyanın rəhbərliyi ilə həm diplomatik və həm hərbi müstəvidə Ermənistanın yeni-yeni uğursuzluğa uğraması ona qarşı əhalinin münasibətinə pis təsir edib.

V.Dadaşov bildirir ki, Azərbaycanın sentyabrın 19-da başladığı birgünlük "lokal antiterror tədbirləri" Vətən müharibəsindən sonra yekun mərhələ kimi ən mühüm hərbi-siyasi nəticələrə səbəb olaraq. Onun sözlərinə görə, Qarabağdakı separtçı rejimin təslim olması, Paşinyan Ermənistanının Qarabağdakı separatçı rejimə hərbi dəstəkdən imtina etməsi, paralel olaraq müəyyən mənada Azərbaycanın maraqları ilə hesablaşması Rusiyaya görə, Paşinyan hakimiyyətinin devrilməsi üçün çox əhəmiyyətli vasitəyə çevrilib:



"Qarabağ separatçı rejiminin Azərbaycanın tələblərinə tabe olması və Azərbaycana surətli inteqrasiya tədbirləri, Rusiyanın regionla bağlı Qarabağ kartını əhəmiyyətsiz hala gətirib. Rus "sülhməramlılarının", hətta Qarabağda həlak olması "vertolyot" hadisəsi kimi, Azərbaycanın başladığı son prosesi, inteqrasiyanı dayandıra bilməyib. Ona görə də Putin hakimiyyəti Ermənistanda Paşinyanı devirmək üçün daha operativ hərəkət etmək məcburiyyətindədir.

Qeyd etdiyim kimi, qarşı tərəf Rusiyanın planlarından hali olduğu üçün Paşinyanın devrilməsinin qarşısını almaq üçün Qərb bütün resurslarını səfərbər edib. Əlbəttə ki, Paşinyana öz tərəfdarları təfindən də xəyanət ehtimalı çox yüksəkdir. Ancaq, görünən odur ki, Rusiya üçün Paşinyanı devirmək o qədər də asan deyil".

Ekspert hesab edir ki, Putinin Paşinyanla bağlı planları ABŞ başda olmaqla Qərbə məlumdur və bu, Rusiya üçün "Paşinyan hədəfi"ni çox çətinləşdirir: "İllərlə Ermənistanda yerləşən 2000-nə yaxın ABŞ səfirlik əməkdaşlarının fəaliyyəti sözsüz ki, bölgəyə nəzarət, kəşfiyaf, laboratoriyalarla yanaşı Ermənistanın da Qərbə inteqrasiyası və Rusiyanın Cənubi Qafqazdan çıxarılması üzərində qurulub. Sentyabrın 11-20 tarixlərində ABŞ-ın Ermənistanda birgə təlimlərindən sonra hərbçilərini çıxarmaması, İrəvanda Paşinyana qarşı əhalinin etirazlarının güclənməsi fonunda ABŞ konqresmenlərinin Ermənistana səfəri birmənalı Paşinyan hakimiyyətinin qorunması və onun üçün Qərbin müəyyən etdiyi missiyanı başa çatdırmağa yardım etməkdir". V.Dadaşovun qənaəti budur ki, Paşinyanın Ermənistanda hakimiyyətdə daha çox müddətdə durması Azərbaycanın maraqlarına tam uyğun hesab edilir:

"Ermənistan Azərbaycan arasında əldə edilmiş razılaşmaların başa çatdırılması, icrası, sözsüz ki, razılaşdırılmış müsbət nəticələrin sıfırlanmasının qarşısını almaq üçün Ermənistanda Paşinyan hakimiyyətinin toxunulmazlığı əsas şərtlərdəndir. Ermənistan uğrunda ABŞ və Rusiya mübarizəsinin müəyyən müddətə uzanması Azərbaycan üçün ən arzuolunan prosesdir".

*Putinin Paşinyanla bağlı planları ABŞ başda olmaqla Qərbə məlumdur*

*✍ **Tahirə***

# Müqəddəs missiya başa çatdı

***Tarixə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsinin başlamasından 3 il keçir. 2020-ci ilin 27 sentyabrında Azərbaycan ərazilərində azğınlaşan işğalçı Ermənistan ordusuna qarşı əks-hücuma keçib düşmənin başını əzən Dəmir Yumruq, Anım Gününə bir həftə qalmış 1 gün qalxdı və gücünü bir daha sınadı. Sentyabrın 19-da aparılan birgünlük antiterror tədbirləri ilə 44 günlük savaşın nöqtəsini qoydu. "Zəfər yolu" Şəhid Ailələrinə və Qazilərə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə "Həftə içi"nə müsahibəsndə bir çox məqama diqqət çəkib.***

## Müsahib

***- Azərbaycanın birgünlük antiterror tədbirləri zamanı şəhid olanların ailələri ilə görüşlərinizdə nələri müşahidə edirsiniz?***

- Azərbaycan Ordusu yenə öz sözünü deyir. Vətən torpağını azad etməklə bərabər, şəhidlər verir, Azərbaycan igid oğullarını qanla yoğrulmuş torpağına əmanət edir.

Bir neçə gündür, dəfn mərasimlərində iştirak edirik. Şəhidlərin ailə üzvlərini gördükcə, onlarla ünsiyyət qurduqca, başqa bir hisslər keçirirəm. Bilirsiniz, ailə üçün öz doğmasını, əzizini itirmək bir faciədir, bir daha əzizini görə bilməmək, onu əvəz edəcək bir insanın olmayacağını düşünmək çox ağrılıdır. Bu acı insana ruhən, mənən əzab verir. Bu acı ilə bərabər, bir qürur hissi var. Sənin həyat yoldaşın, övladın, qardaşın Vətən uğrunda, onu sevərək, onun üçün can verməyə hazır olaraq bu döyüşlərdə iştirak edib. Azərbaycan Ordusunun başladığı son antiterror tədbirləri Azərbaycan Ordusunun 27 sentyabrda qazandığı zəfərin tamamlanması üçün atılmış addımlardır. Vətən Müharibəsindən 3 il vaxt ötməsinə baxmayaraq, bizim Xankəndi, Xocalı, Xocavənd, Ağdərəmizdə yuva salan erməni separatçıları öz revanşist siyasətlərindən əl çəkmədi. Antiterror tədbirlərindən bir gün əvvəl polislərimiz, yol mühəndislərimiz terrorçuların ərazilərimizə basdırdıqları minaların partlaması nəticəsində şəhid oldular. Bu, bizim səbr kasasına dolan son damla idi. Azərbaycan Ordusu antiterror əməliyyatlarına başladı. Bu, əməliyyat gələcəyimizin təhlükəsiz təminatı üçün baş verməli idi. Qəti qərarlar qəbul etməyin zamanı idi və cənab Prezident bunu etdi. Lakin ictimai təhlükəsizliyə xələl gətirməyən, Azərbaycan qanunvericiliyinə uyğun yaşamaq istəyən ermənilər bu ölkənin ərazisində qala bilər. Azərbaycan bunu erməni separatçılarına, bütün dünyaya diqtə etdi. Allah şəhidlərimizin ruhunu şad eləsin.

***- 2020-ci ilin 27 sentyabr tarixi - Anım Günü bir şəhid ailəsi olaraq, sizin həyatınızda mühüm bir səhifəni açmışdı. Necə hesab edirsiniz, o tarixin başlandığı proses bu gün hansı mərhələdədir?***

- Vətən Müharibəsinin üçüncü ildönümüdür. Xalq, dövlət, ordu birliyinin gətirdiyi möhtəşəm Zəfər tarixindən üç il keçir. Allah şəhid qəhrəmanlarımızın ruhunu şad etsin, böyük bir qələbə qazandıq. Azərbaycan xalqı birləşərək Ordusunun, Dövlətinin arxasında durub, 200 ildən sonra qalib xalq kimi öz sözünü dedi. Öz tarixində qızıl səhifəsini açdı. Bu, böyük, qürur hissini doğuran Şanlı Zəfər tariximizin başlanğıcı idi.

44 günlük savaşda Şuşa Zirvəsinin qazanılması hər bir azərbaycanlının köksünü qabardır. 2020-ci ilin 27 sentyabrında başlayan döyüş yolları Şuşaya apardı. Qəhrəman oğullarımız Azərbaycanın işğal altında qalan ərazilərini azad etməklə böyük tarixi prosesə başladılar və otuzillik işğala son qoyuldu. Bu tarix torpaqlarımızın minalardan təmizlənməsi, yenidən dirçəldilməsi və məcburən köçkün düşmüş insanlarımızın yurda qayıdışının başlanğıcını qoydu. Bu gün Azərbaycanın Füzuli, Laçın, Ağalı bölgəsində həyat var, insanlar öz yurdlarına qayıdır, ocaqlarını qalayırlar.

İnşAllah, son antiterror əməliyyatından sonra qayıdışımız, bərpa işlərimiz daha da fəallaşacaq. Hər bir kəs öz dədə-baba yurduna qayıdacaq.

> *Azərbayan xalqı cəbhədən gələn hər bir şəhidini alqışlarla, qəhrəman kimi dəfn edirdi*

***- 27 Sentyabr əks-hücum əməliyyatına qədər Azərbaycan Ordusu, Azərbaycan insanı hansı hazırlıqlardan keçdi?***

- Azərbaycan xalqı, Azərbaycan oğlu heç vaxt işğalla barışmamışdı. Xalq olaraq düşüncəmiz, yaşadığımız faciələr, zülmlər mənfur ermənilərin törətdiyi qətliamlar, soyqırımlar bizim hər birimizin qan yaddaşına hopdu. Birinci Qarabağ döyüşlərində şəhid olan qəhrəman oğullarımızın itkisi, hələ də qisasın alınmaması hər bir azərbaycanlını mənən sıxırdı. "Axı, nəyə görə torpaqlar işğal olunmalı idi, nəyə görə bu qədər itkilər verdik?" - deyə mənən özümüzü didib-parçalayırdıq.



**Sevinc Alızadə,**
"Zəfər yolu" Şəhid Ailələrinə və Qazilərə Dəstək İctimai Birliyinin sədri

Hamıda bir əzm var idi: biz döyüşməyi bacaran xalqıq, böyük milli-mənəvi zənginliyə, milli kimliyə sahib bir xalqıq, bizim son sözümüz var Düşünürəm, 2016-cı ilin Aprel döyüşləri xalqın nəbzini yoxladı. Bütün dünyaya sübut olundu ki, 25 il keçsə də, Azərbaycan xalqı Qarabağdan vaz keçməyib. Azərbayan xalqı cəbhədən gələn hər bir şəhidini alqışlarla, qəhrəman kimi dəfn edirdi. Böyüyündən tutmuş, kiçiyinədək hər bir Azərbaycan insanı döyüşə hazır vəziyyətdə idi. Mən bunu ilk olaraq Raquf Orucovun dəfnində gördüm. Biz bunu yaşadıq. Düşünürəm, 2020-ci il Vətən Müharibəsinə gedən zəfər yolu 2016-cı ildə başlamışdı. Sonra Tovuz hadisələri, qəhrəman generalımız Polad Həşimov və onun ətrafında olan əsgərlərin, polkovnik İlqar Mirzəyevin və digər oğullarımızın şəhidliyi bu qələbəyə gedən yolu yaxınlaşdırırdı. General şəhid olmuşdu, bütün Azərbaycan meydanlara çıxdı. Torpaqlar işğalda idi, dövlət sərhədi pozulmuşdu.

Azərbaycanın Vətən Müharibəsi qaçılmaz idi. Bəli, torpaqların azadlığı uğrunda hərbi mübarizəyə gətirən simvollar, qəhrəmanlar, onların örnək həyatı, mübarizəyə səsləyən çıxışları var idi və bunların hamısı özünün təsirini göstərdi. Mübariz İbrahimov kimi ölümdən qorxmayan, ölümün gözünə dik baxan oğullar var idi. 27 sentyabrda igid oğullarımız o qəhrəmanların ardınca getdilər.

Beləliklə, 27 sentyabrda başlayan Vətən müharibəsi həm I Qarabağ döyüşlərində şəhid olan qəhrəmanlarımızın, həm erməni zülmünün qurbanı olan bütün soydaşlarımızın, həm də torpağımızın qisası alındı. Xocalı, Meşəli, Ağdabanın faciəsi cəzasız qala bilməzdi. Bölgədə bu zülmə son qoyulmalı idi və 27 Sentyabr müqəddəs Vətən Müharibəsi Qafqazda Azərbaycan torpağında erməni zülmünə "dur" dedi. Sübut etdi ki, dünyada ədalət var. Əgər ədaləti kağız üzərində bərpa etmək mümkün deyilsə, o ədaləti bərpa edən, qoruyan qəhrəman Ordumuz var.

***- Müharibədən sonra belə bir dönəmdə şəhid ailələrinə, qazilərə münasibətdə hansı mühüm addımların atılmasına ehtiyac var?***

- Bizim mübarizəmiz hələ də davam edir. Ölkəmizin ərazisindən son terrorçu çıxanadək bu mübarizə davam edəcək. Müharibə bitəndən sonra Azərbaycan xalqı tam təhlükəsiz şəraitdə yaşayacaq. Bir faktı unutmaq olmaz. Adlarını qızıl tariximizə qanla yazmış qəhrəmanlarımızı, bütöv Azərbaycan uğrunda həyatlarını fəda etmiş igidlərimizi və onların xatirəsini unutmamalıyıq. Nə qədər ki, Azərbaycan yaşayır, biz onları yaşatmalıyıq. Onların xatirəsi daim ehtiramla, minnətdarlıqla yad edilməlidir. Ən böyük təşəkkür canlarını fəda edən o qəhrəmanlara düşür. Onlar biz yaşayaq deyə, Vətənimiz var olsun deyə, canlarından keçdilər, Vətəni bizə əmanət etdilər. Vətən onlara minnətdardır, bizim hamımız onlara minnətdarıq, onlar bizim qəhrəman şəhidlərimizin qisasını aldılar, arzularını sona çatdırdılar. Ona görə də gənc nəslin maarifləndirilməsi, qazilərimizə olan münasibət və bu ailələrə göstərilən ehtiram diqqət əsasında aparılmalıdır. Qazilərimizlə tez-tez görüşlər keçirib onların döyüş yolu xartirələrini, döyüş dostları barədə xatirələrinin gənc nəslə çatdırılmasını təmin etməliyik. Bu yöndə işlər davam etdirilməlidir, dayanmadan, usanmadan... Erməni terroru hər birimizə toxuna bilər. Biz daim hazır olmalı, keçmişimizdən nəticə çıxarmalıyıq. Gənc nəslimiz vətənpərvər ruhda böyüməli, şəhidlərin məzarları daim anılmalıdır. Hər bir bölgədə şəhid məzarları var. Hər biri o zonada yaşayan gənclər tərəfindən gözbəbəyi kimi qorunmalıdır.

Daimi ziyarətgahlara çevrilməlidir. Anım günlərini yad etməli, eyni zamanda, onların bizə qalan əmanətlərinə sahib çıxmalıyıq. Elə etməliyik ki, şəhidlərin övladları bu ölkədə ən layiqli zirvələrdə olsunlar. Onları düzgün tərbiyə edib, yaxşı təhsil verməliyik ki, böyüyüb Vətənimizin hər bir sferasında işləsinlər. Əminəm ki, Azərbaycan xalqı bunu bacaracaqdır.

***- "Heydər Əliyev ili"ndə Ermənistanın işğalçı siyasətinə, eləcə də müharibədən sonra Qarabağda qalan erməni separatçıları, qeyri-qanuni silahlı birləşmələrinin çıxarılması ilə bağlı görülən işləri necə dəyərləndirmək olar?***

- 2023-cü il Ulu Öndər ilidir. Bu il Ulu Öndərin xatirəsinə həsr olunmuş bir çox festivallar, konfranslar həyata keçirilir. Azərbaycan Ordusunun nailiyyətləri, torpaqların işğaldan azad edilməsi, Xocalı, Xankəndi, Ağdərəyə Azərbaycan Bayrağının taxılması Ulu Öndərin 100 illiyinə ən böyük töhfə olacaq. Bu gün Ulu Öndərin ruhu şaddır - Azərbaycan əsgəri müqəddəs missiyanı başa çatdırdı.

*✍ Tahirə Qafarlı*



# Sülhə ümid verən Qranada görüşü

## Müzakirə

əvvəli 3-cü səhifədə

Məsələn, Fransa, ABŞ-da müəyyən dairələr var ki, hazırda atdıqları addımlar, verdikləri açıqlamalar sülh prosesinə ciddi mənfi təsir göstərir. Ermənistanın Azərbaycana münasibətdə haqsız iddialarının qorunub-saxlanmasına çalışırlar. Qarabağdakı ermənilərin "hüquqi təhlükəsizlik" adı ilə ölkəmizin daxili işlərinə qarışırlar. Bu da bütövlükdə Avropanın vasitəçilik missiyasına mənfi təsir edir. Bütövlükdə ümid edək ki, qarşıdakı görüşdə iki ölkə arasında problemlərin həllində ciddi addımlar atılacaq".

**■ Politoloq Natiq Miri bildirir ki, son 24 saatlıq antiterror əməliyyatı regionda tamamilə yeni reallıqlar yaratdı, vəziyyəti kökündən dəyişdi.**

Onun sözlərinə görə, əgər dünənə qədər sülh danışıqlarında əngəl Qarabağ məsələsi, ermənilərin hüquq və təhlükəsizliyi kontekstində beynəlxalq mexanizm nəzarəti iddiası idisə, artıq bu məsələ ortadan qaldırılıb. "Görüşlərin beynəlxalq mexanizmlərin nəzarəti altında keçirilməsi" ilə bağlı heç kim danışmır, çünki buna ehtiyac qalmadı.

N.Miri eyni zamanda qeyd edir ki, Qarabağda olan separatçı rejim beynəlxalq səviyyədə müstəqil subyekt kimi tanınmamışdır:

"Qarabağda qanunsuz rejim və onları qoruyan qanunsuz silahlı birləşmələr mövcud idi. Azərbaycan bu qanunsuz silahlı birləşmələrin Qarabağdan çıxarılmasını tələb edirdi və bu, tam legitim, hüquqi idi. Rusiya özünün geosiyasi maraqları kontekstində erməni silahlılarının çıxarılmasına nəinki rəvac vermədi, bu üç il ərzində Laçın dəhlizi vasitəsilə Qarabağa silahsursat daşındı. Bu gün təhvil verilən silahların miqyasına baxanda görünür ki, həqiqətən də ərazidə bir ordunu silahlandıra biləcək həcmdə texnika mövcud imiş.

Ona görə də Azərbaycan Qarabağ probleminin həlli üçün yeganə əngəl olan silahlı birləşmələri silahsızlaşdırma prosesinə başladı. Belə bir vaxtda Ermənistan birmənalı olaraq Qarabağda ordusunun olmasını rədd etdi. Əgər Qarabağda olan silahlılar Ermənistan ordusu deyilsə, bu, qanunsuz silahlı birləşmələrdir və beynəlxalq hüquqda adı "terrorçu"dur.

Onlara beynəlxalq münasibət birmənalıdır: terrorçu varsa ləğv olunmalıdır. Azərbaycanın etdiyi bu idi. Sadəcə olaraq, bu əməliyyatı qısa müddətdə, ildırım sürəti ilə, peşəkarcasına və beynəlxalq humanitar hüquq gözlənilərək apardı. Bu da gələcəkdə Azərbaycanı ittiham etmək istəyənlərin əlindən bütün "silahları almış oldu".

Politoloq bildirir ki, Azərbaycanın antiterror əməliyyatı ilə yaratdığı yeni situasiya danışıqlar prosesinin önünü açıb. Onun fikrincə, sülh müqaviləsinə əngəl olan Qarabağ məsələsi aradan qaldırılandan sonra, Ermənistanın sülh müqaviləsini imzalamaq üçün ciddi bir problemi qalmayıb:

"Belə bir vəziyyətdə Qərb gecikərsə, estafetin Rusiyanın əlinə keçəcəyindən qorxdu. Ermənistan bu prosesi birtərəfli qaydada sabotaj etməsə, az ehtimal olunsa da, yeni hərbi təxribatlar törədilməsə, bu görüş baş tutacaq. İndiki vəziyyətdə yalnız sülh danışıqları Ermənistanı indiki təhlükələrdən qoruya bilər. Paşinyan Ermənistanı vassal olmaqdan çıxarıb, beynəlxalq aləmin müstəqil subyekti olmasını təmin etmək istəyirsə, bunun Azərbaycanla Türkiyə ilə normal münasibətlər sistemi qurmasından keçdiyini anlayır.

Deməli, Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasına ehtiyac duyur. O cümlədən, prosesdə maraqlı olan Qərb istəyir ki, indiyədək danışıqlarda əldə olunan nailiyyətlər bir daha təsdiq edilsin, geriyə dönüş olmasın. Bu da ərazi bütövlüyü və suverenliyin tanınmasının yenidən dövlətlər tərəfindən təsdiq olunmasıdır. Sülh müqaviləsi üçün yollar açılır. Avropa Birliyi səmimidirsə, tərəfsizliyini pozmayacaqsa, Azərbaycan danışıqlar prosesində axıra qədər getməkdə maraqlıdır".

**■ "Yeni xətt" Müstəqil Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov bildirir ki, Qranada görüşündə yalnız qarşı tərəfin xahişlərini dinləyə bilərik:**

"Ümumilikdə, Azərbaycanın ərazi bütövluyünun bərpası istiqamətində atdığı addımlar peşəkar diplomatik xətlə aparılır. Bütün dünya ictimaiyyətinə bəllidir ki, millətimiz haqq mubarizəsində qələbə çaldı.

> *Azərbaycanın antiterror əməliyyatı ilə yaratdığı yeni situasiya danışıqlar prosesinin önünü açıb*

> *Qranadada bütün şərtlər bizim tərəfimizdən qoyulacaq*

Ölkə başçımız bu prosesi mükəmməl şəkildə həyat keçirdi. Ermənistan istər diplomatik, istər siyasi, hərbi, iqtisadi baxımdan bizimlə müqayisəolunacaq səviyyədə deyildir. Ona görə də bütün şərtlər bizim tərəfimizdən qoyulacaq. Bu şərtlər beynəlxalq hüququn prinsiplərinə əsasən tələb olunacaq".

R.Hüseynov görüşdə Zəngəzur dəhlizi məsələsi və antiterror əməliyyatından sonra, qazandığımız üstünlüklərə hesablanmış digər tələblərimizin təminatı məsələsinin öhdəlik kimi qoyulması ehtimalını önə çəkir:

"Son bir neçə gün ərzində cərəyan edən hadisələr, istər qarşılıqlı səfərlər çərçivəsində, istər müəyyən ölkə rəhbərlərinin səsləndirdiyi ifadələri nəzərə alaraq, Azərbaycan Dövlətinin mövqeyi və statusu möhkəmlənərək sürətlə inkşaf edir.

Biz bu yaranmış şəraitdən maksiumum yararlanmalıyıq. Azərbaycan heç zaman olmadığı kimi, böyük strateji siyasi addımlar atır. Bunu vasitəçilər və dünyanın siyasi kəsimi gözəl anlayır. Ona görə də vasitəçilərin istəkləri, niyyətləri deyil, bizim istəklərimiz, atılacaq addımlarımız daha önəmlidir. Yaxın illərdə atılan o addımların bəhrəsini xalqımız görəcək".

*✍ Tahirə Qafarlı*

# Tezliklə Böyük Qayıdış Xankəndini də əhatə edəcək

**Sentyabrın 26-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev otuz iki əvvəl Xankəndi şəhərindən məcburi köçkün düşmüş azərbaycanlıların bir qrupu ilə görüşüb.**

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli hərbi-siyasi və diplomatik səyləri nəticəsində üç il əvvəl 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur torpaqlarının Ermənistanın işğalından azad edildiyi, həmin ərazilərdə qalan erməni birləşmələrinin və qondarma qurumun isə bu il sentyabrın 19-20-də az müddətdə icra edilən antiterror tədbirləri sayəsində tamamilə ləğv olunduğu böyük razılıq və qürur hiss ilə xatırladılıb.

Qeyd edilib ki, hazırda bölgədə Ermənistan silahlı qüvvələrinə və terrorçu dəstələrə məxsus silahların müsadirəsi prosesi aparılır, Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən ermənilərin könüllü və təhlükəsiz şəkildə ölkəmizdən çıxmasına şərait yaradılır.



Yeni yaranmış situasiyada tezliklə Böyük Qayıdışın Xankəndinin məcburi köçkün olan azərbaycanlı əhalisini də əhatə edəcəyi diqqətə çatdırılıb. Qeyd olunub ki, məcburi köçkünlüklə üzləşən bütün həmvətənlərimiz kimi xankəndililər də daim dövlətimizin himayəsində olublar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə uyğun olaraq Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımıza daim böyük diqqət və qayğı göstərib. Məcburi köçkünlər Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həssas münasibətini hər zaman hiss edib, onun dəstək və köməyindən bəhrələniblər. Bu gün işğaldan azad edilmiş ərazilərin dirçəlişi, bərpası və yenidən qurulması, Böyük Qayıdış proqramı üzrə tədbirlərin sürətlə həyata keçirilməsi istiqamətində məqsədyönlü iş aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda dönürlər. Xankəndidən olan məcburi köçkünlərin də bu prosesə qoşulacağı gün uzaqda deyil.

Dövlət Komitəsinin sədri məcburi köçkünlərin qayıdışa hazırlanması ilə bağlı həyata keçirilən tədbirlər, işğaldan azad edilmiş ərazilərdə yenidən salınmış və bərpa olunmuş yaşayış məntəqələrinə köçürülmənin gedişi və qaydaları haqqında görüş iştirakçılarını məlumatlandırıb, azərbaycanlı əhalinin Xankəndi şəhərinə qayıdışının təşkili ilə bağlı qarşıda duran vəzifələrdən danışıb, dövlətimizin başçısının bununla bağlı tapşırıqlarını onlara çatdırıb.

Görüşdə Xankəndindən olan məcburi köçkün icmalarının nümayəndələri, ziyalılar, ictimai fəallar, həmçinin Dövlət Komitəsi yanında İctimai Şuranın üzvləri iştirak edib, qayıdışa hazırlıq məsələlərinə dair rəy və təkliflərini səsləndiriblər.

# Büdcədə neftin dəyəri

**Məlum olduğu kimi, Maliyyə Nazirliyi 2024-cü il və sonrakı üç il üçün dövlət büdcəsinin ilkin layihəsini, həmçinin icmal büdcənin proqnozunu və ortamüddətli xərclər çərçivəsi sənədinin ilkin layihəsini açıqlayıb. Sənədə əsasən, 2024-cü ildə xam neftin bir barrelinin orta illik ixrac qiyməti 60 ABŞ dolları səviyyəsində götürülüb. Qeyd edək ki, yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin gəlirlərinin hesablanması zamanı "Azəri Light" markalı xam neftin bir barrelinin orta ixrac qiymətinin 10 ABŞ dolları artırılaraq, 60 ABŞ dolları müəyyən edilmişdir.**




## İqtisadiyyat

2024-cü ildə dövlət büdcəsinin kəsiri 2023-cü ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 144,3 milyon manat və ya 5,3 faiz az olmaqla 2 milyard 590 milyon manat (ÜDM-də xüsusi çəkisi 2023-cü illə müqayisədə 0,1 faiz-bənd az olmaqla 2,2 faiz) proqnozlaşdırılır. Bəs, görəsən, büdcə sənədində neftin qiymətinin 60 dollar nəzərdə tutulması özünü nə dərəcədə doğruldacaq? Ümumiyyətlə, gələn il üçün neft qiymətləri ilə bağlı proqnozlar nədən ibarətdir?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirib ki, hökümət gələn ilin büdcə sənədində**



**Akif Nəsirli,**
Liberal İqtisadçılar
Mərkəzinin sədri

**neftin barrelini daha optimist qiymətlərlə dəyərləndirir:** "Yəni, təxminən, həmin dövrdəki real qiymətə yaxın qiymətlə dəyərləndirib. Məsələn, neftin qiyməti hər dövrdə əgər 80-90 dollar qeydə alınırsa, bu rəqəm təxminən orta qiymət olaraq 70 dollar götürülür. Amma növbəti il üçün hökumətin həm də çox ehtiyatlı davrandığını görürük. Bunun da əsas səbəbi ondan ibarətdir ki, əvvəllər neftin qiyməti ona görə real qiymətə yaxın götürürdülər ki, dövlət büdcəsini transferlərə uyğun daha çox artıra bilsinlər. Bu ildən biz bir neçə il əvvəlki praktikaya qayıtdıq. Deməli, biz ilin ikinci yarısında neftdən gələn gəlirlərlə dövlət büdcəsinə yenidən baxırdıq. İki il idi ki, bu praktika dayandırılmışdı, dövlət büdcəsinə ilin yarısında baxılmırdı, indi bu ildən artıq həmin proses işə düşdü. Bu baxımdan neftin qiymətinin büdcədə ehtiyatlı götürülməsi münasibdir. Neftin qiyməti aşağı düşərsə, proqnoz doğru olacaqsa, dövlət büdcəsinə əlavə və dəyişikliklər, artımlar ediləcək. Neftin qiyməti yuxarı olacaqsa, profisit yaranacaqsa, ilin ortasında yeni dövlət büdcəsinə baxacaqlar və dövlət büdcəsinin müəyyən xərclərini artıracaqlar. Məsələ burasındadır ki, arzu edərdim ki, Azərbaycan dövləti neftin qiymətlərindən asılı olmayan, vergilərə və digər daxilolmalara əsaslanan sabit dövlət büdcəsinin tərtib edilməsinə nail olsun və bu dövlət büdcəsi 6 aydan bir dəyişməsin. Üçüllik, beşillik, hətta dünya praktikasında daha uzunmüddətli büdcə proqnozların verilməsi mümkündür. Bu yanaşma müvafiq qanunvericiliklərə də uyğundur".

> “
> *Növbəti il üçün hökumətin, həm də çox ehtiyatlı davrandığını görürük*

> *İqtisadi artımın əsas drayveri qeyri-neft sektoru olacaq*

> *Neftin qiymətində volatilliyin müşahidə olunması o deməkdir ki, qiymət arta da bilər, düşə də bilər*

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, əslində növbəti ilin dövlət büdcəsində neft sektorundan daxilolmaların azalması, qeyri-neft sektorunun isə artacağı gözlənilir:** "İqtisadi artımın əsas drayveri qeyri-neft sektoru olacaq. Proqnoza görə, 2024-cü ildə Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 41,1 faizini və ya 13 milyard 865 milyon manat təşkil edəcək. Bu da cari ilin dürüstləşdirilmiş proqnozundan 11 milyard 22 milyon manat və ya 7,5 faiz azdır. Bununla yanaşı, növbəti ildə dövlət büdcəsi gəlirlərinin 12 milyard 781 milyon manatı və ya 37,9 faizi Dövlət Neft Fondundan transfertin, 5900,0 milyon manatı və ya 17,5 faizi Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 831,0 milyon manatı və ya 2,5 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 388,0 milyon manatı və ya 1,2 faizi isə sair gəlirlərin payına düşür. Fondun transfertindən əlavə, növbəti ildə neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 23,7 faizini və ya 3975,0 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək. Növbəti ildə qeyri-neft və qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 58,1 faizini vergi, 34,7 faizini gömrük orqanlarının xətti ilə daxilolmalar, 4,9 faizini büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, 2,3 faizini sair gəlirlər təşkil edəcəkdir. Başqa sözlə, qeyri-neft və qaz sektorundan daxilolmanın büdcədə daha üstün paya sahib olacağı gözlənilir. Ümumilikdə növbəti ildə büdcəyə daxil olan vergi, gömrük və digər mənbələrdən toplanan rüsumlar, eləcə də Neft Fondundan transfertin həcmi demək olar ki, cari ilə uyğun bir rəqəmlərdir. Yəni çox da ciddi fərqlənmir".



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Eyyub Kərimli isə qeyd edib ki, neft bazarında volatillik hələ də səngiməyib:** "Məlum olduğu kimi, Rusiya Ukrayna müharibəsi bitməyib və bununla bağlı nə baş verəcəyi enerji bazarında qeyri-müəyyənlik yaradır. Neftin qiymətində volatilliyin müşahidə olunması o deməkdir ki, qiymət arta da bilər, düşə də bilər. Bu gün neftin qiyməti əlbəttə 100 dollar üzərindədir. Bu o demək deyil ki, bu, belə də davam edə bilər. Bu istiqamətdə risklər var. Digər tərəfdən, bildiyiniz kimi neft tədarükü, ümumiyyətlə, ölkələr üzrə bir neçə ay öncədən həyata keçirilir. Ona görə düşünürəm ki, bu gün hökümətin neftin qiyməti ilə bağlı ehtiyatlı davranması əlbəttə ki, müsbət yanaşmadır.



**Eyyub Kərimli,**
iqtisadçı-ekspert

Bizdə bununla bağlı acı təcrübə olub və neftin qiyməti dünyada bəzən 20-30 dollara düşüb. Nəticədə büdcədə müəyyən kəsrlər müşahidə olunub. Bu baxımdan hesab edirəm ki, hökumətin yanaşması sığortalı və düzgün yanaşmadır. Növbəti il üçün proqnozlara gəlincə, dünya maliyyə təşkilatları, digər təşkilatlar da bununla bağlı müəyyən proqnozlar verirlər. Onların proqnozuna görə qiymət 70 dolların üzərində olacaq. Amma qeyd qeyd etdiyim ki, bu qeyri-müəyyən bir sahədir və bazarda Rusiya-Ukrayna müharibəsinin təsirləri müşahidə edilməkdədir. Bunun da nə qədər davam edəcəyi qeyri-müəyyəndir".

✍ Sevinc

## Büdcə

**Gələn il Azərbaycanda iqtisadi fəaliyyət xərcləri 22 faiz azaldılacaq. Belə ki, 2024-cü ildə ölkəmizdə iqtisadi fəaliyyət xərclərinin 7 milyard 380 milyon manat olması nəzərdə tutulur. Bu barədə Maliyyə Nazirliyi xəbər verir. Məlumata görə, bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 21,5 faiz azdır. Xatırladaq ki, bu ilin ortasında "2023-cü il dövlət büdcəsi haqqında" qanuna edilən dəyişikliklərə əsasən, dövlət büdcəsindən iqtisadi fəaliyyətlə bağlı ayırmalar 2 milyard 511,701 milyon manat və yaxud 36,4 faiz artırılaraq 6 891,164 milyon manatdan 9 milyard 402,865 milyon manata çatdırılır.**

# İqtisadi fəaliyyət xərcləri azaldılır



Sənədə əsasən, iqtisadi və kommersiya fəaliyyəti xərclərinin dəyişdirilməyərək 56,02 milyon manat, geodeziya və faydalı qazıntı xərclərinin dəyişdirilməyərək 9,43 milyon manat, yanacaq və enerji kompleksi xərclərinin dəyişdirilməyərək 3,05 milyon manat saxlanılması, nəqliyyat və rabitə xərclərinin 31,501 milyon manat və yaxud 8,6 faiz azaldılaraq 366,882 milyon manatdan 335,381 milyon manata endirilməsi, tikinti və şəhərsalma xərclərinin 1 milyard 810 milyon manat və yaxud 32 faiz artırılaraq 5 milyard 651,97 milyon manatdan 7 milyard 461,97 milyon manata, iqtisadi fəaliyyətlə bağlı digər xərclərin isə 733,201 milyon manat və yaxud 91,2 faiz artırılaraq 803,811 milyon manatdan 1 537,012 milyon manata çatdırılıb.

Maraqlıdır, görəsən, növbəti il üçün iqtisadi fəaliyyət xərclərinin azaldılması nə ilə bağlıdır?

Mövzunu qəzetimizə şərh edən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirib ki, iqtisadi fəaliyyətin azaldılması hər bir dövlətin hədəfində olan məsələ olmalıdır:

"Bazar iqtisadiyyatı modeli ilə çalışan hökumət ilbeil iqtisadi fəaliyyətini minimuma endirməlidir. Yəni, dövlətin iqtisadiyyatda fəaliyyəti minimum səviyyəsində olmalıdır. Bu gün Azərbaycan hökumətinin iqtisadi fəaliyyət, hətta kommersiya fəaliyyəti ilə məşğul olan şirkətlərinin sayı kifayət qədərdir. Əslində bu şirkətlərin hər il özəlləşdirilməsi prosesi getməlidir və bu proses ləng də olsa, gedir.

> “
> *Bazar iqtisadiyyatı modeli ilə çalışan hökumət ilbeil iqtisadi fəaliyyətini minimuma endirməlidir*

Düzdür, böyük şirkətləri özəlləşdirmirlər. Məsələn, Azərsu, Azərenerji, Azəriqaz, SOCAR və s. buna bənzər şirkətlərin özəlləşdirilməsi ehtimalları çox aşağıdır.

Amma kiçik şirkətləri özəlləşdirirlər və dövlət büdcəsindən ona ayrılan vəsaitlər də azalır. Bunun hesabına Azərbaycan hökumətinin iqtisadi fəaliyyətə yönəlik xərcləri də ilbeil azalır.

Müşahidə etsəniz görərsiniz ki, hər ay özəlləşdirmə ilə bağlı elanlar verilir və bu elanlara uyğun özəlləşdirilən dövlət əmlakının siyahısı Əmlak Məsələləri Dövlət Komitəsində mütəmadi olaraq yenilənir".

✍ Sevinc



■ **"Şuşa və digər işğaldan azad olunmuş ərazilərdə binaların bir hissəsi hazırdır". Bunu jurnalistlərə açıqlamasında Şuşanın icra başçısı Bayram Səfərov deyib.**

İcra başçısı bildirib ki, Şuşa icra hakimiyyəti əvvəlki formada fəaliyyətini davam etdirir: "Əvvəl necə işləyirdiksə, indi də elə davam edirik. Tək Şuşa deyil, Şərqi Zəngəzurda, Ağdamda, Kəlbəcərdə Prezidentin təyin etdiyi nümayəndələr var. Onlar verilmiş tapşırıqları icra edirlər. Biz də əvvəllər olduğu kimi Bakı şəhərindən fəaliyyətimizi davam etdiririk". Onun sözlərinə görə, Şuşaya qayıdışla bağlı işlər aparılır: "Bildiyiniz kimi, müəyyən rayonlarımıza qayıdış başlayıb.



■ **Azərbaycanda 37 qeyri-müsəlman dini konfessiya var və bunlardan 26-sı xristian icmasına məxsusdur.**

Bunu Tbilisidə keçirilən "Dinlərarası dialoqda dövlətin rolu" adlı beynəlxalq konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O bildirib ki, dini konfessiyalardan 2-si gürcü icmasına məxsusdur.

Mübariz Qurbanlı hazırda 16 kilsənin olduğunu, bunlardan birinin isə Bakının mərkəzindəki erməni kilsəsi olduğunu bildirib. O vurğulayıb ki, burada erməni kilsəsinə məxsus əlyazmalar da saxlanılır və xaricdən gələn nümayəndələr oranı görmək istədiyi zaman tam şərait yaradılır.



■ **Nazirlər Kabinetinin "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 5 noyabr tarixli 320 nömrəli qərarında dəyişiklik edilib.**

Bununla bağlı Baş nazir Əli Əsədov Qərar imzalayıb. Dəyişikliyə əsasən, bu Qaydanın 2.1-ci, 2.2-ci, 2.4-cü və 2.5-ci bəndlərində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilməyəcək.



■ **"Hazırda bir neçə yeni silah növləri yaradılmaq üzrədir. Bu istiqamətdə işlər aparılır". Bunu jurnalistlərə açıqlamasında müdafiə sənayesi naziri Mədət Quliyev deyib. O bildirib ki, hazırda Müdafiə Sənayesi Nazirliyinin tərkibində yeni holdinq yaradılır:**

"Biz başqa formada işlər aparırıq. Ümumilikdə, Azərbaycanda iki mindən artıq çeşiddə müdafiə təyinatlı məmulat istehsal edilir". Nazirin sözlərinə görə, Azərbaycan istehsalı olan müdafiə təyinatlı məmulatların alınması üçün müraciətlərin sayı artmaqdadır. Belə ki, Vətən müharibəsindəki qələbədən sonra Azərbaycanın istehsal etdiyi hərbi məhsullara tələbat həddən çox artıb. Mədət Quliyev əlavə edib ki, 30-a yaxın dövlət silah-sursat almaq üçün müraciət edib:



■ **Rusiya Federal Təhlükəsizlik Xidməti (FDX) Moskvada məhkəmə binasını yandıran iki şəxsi saxlayıb. Avqust ayında onlar gecəyarısı oraya fitilli şüşə qoyublar.**

Yanğın avqustun 29-da gecə Moskva şəhərinin Siolkovski küçəsindəki 160 saylı Məhkəmənin ərazisində baş verib. Naməlum şəxslər katibin kabinetinə od vurub və hadisə yerində yalnız içində fitil olan şüşə qoyub gediblər. Yanğın tez bir zamanda söndürülüb. Eyni vaxtda hüquq-mühafizə orqanları yanğın törədənləri axtarmağa başlayıb. Axtarış təxminən bir aya yaxın çəkib və sentyabrın 25-də FDX iki şübhəli - 31 yaşlı Ohannes Şukurun və 30 yaşlı Sargis Aytyan saxlanılıblar.




■ **Oktyabrın 5-də "Bakı Hərrac Mərkəzi" MMC-də ləğv prosesində olan "Atabank" ASC-nin, oktyabrın 10-da "Əmlak Hərrac Mərkəzi"ndə ləğv prosesində olan "Günaybank" ASC-nin, oktyabrın 12-də isə "Bakı Hərrac Mərkəzi" MMC-də ləğv prosesində olan "Dəmirbank" və "Texnikabank" ASC-lərin daşınar və daşınmaz əmlaklarının satışı üzrə hərraclar keçiriləcək.**

Bu barədə bankın ləğvedicisi - Azərbaycan Əmanətlərin Sığortalanması Fondu (ƏSF) məlumat yayıb. Söhbət "Atabank"a məxsus Gəncə şəhəri, Kəpəz rayonu, Şah İsmayıl Xətai prospekti, ev 57/107 ünvanında yerləşən 42,4 kv.-metrlik mənzildən, "Günaybank"a məxsus 22 daşınar əmlakdan, "Dəmirbank"a məxsus Gəncə şəhəri, Kəpəz rayonu, Əziz Əliyev prospekti, 59 ünvanında yerləşən 1 183,6 kv.metrlik əmlak kompleksindən və "Texnikabank"a məxsus Quba rayonu, İqriq kəndində yerləşən 0,9 ha torpaq sahəsindən gedir.

# “Anama şəhid olduğumu dedilər...”

**_Torpaqlarının işğaldan azad edilməsi uğrunda ölümün üzünə dik baxan əsgər, hər an döyüşə hazır olduğunu bir daha sübut etdi. Dünyaya göstərdi ki, Azərbaycan əsgəri üçün hər şeydən öncə Vətəndir. Sizi belə qəhrəman igidlərimizdən biri ilə tanış edəcəyik: Aprel döyüşlərində, II Qarabağ müharibəsində və birgünlük antiterror əməliyyatında iştirak edən, yaralanan, ölümün pəncəsindən çıxıb yenə düşmən üzərinə gedən beş medal sahibi qazi, döyüşçü Eldar Quliyev._**

## Müsahib

**_- 27 sentyabr əks-hücum əməliyyatını necə xatırlayırsınız? Azərbaycan hərbçisi, döyüşçü üçün bu tarixin əhəmiyyəti, mənəvi haqqı nədir?_**

- Mən 1987-ci ildə Astara rayonunda anadan olmuşam, 2005-ci ildə Astara Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışam. 2007-ci ildə ehtiyata buraxılmışam və özəl mühafizə şirkətlərinin birində xidmət rəisi vəzifəsində işləmişəm. 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqcusu kimi işə qəbul olunmuşam. 2016-cı il aprel döyüşlərində iştirak etmişəm. Nəhayət, 2020-ci ildə cənab Prezident fərman verdi və mən də sevinclə, gülə-gülə döyüşə qatıldım. Çünki illərlə gözlədiyimiz torpaqların işğal acısının qisasını almaq şansı yaranmışdı...



Tuşlayıcı operator, maşın komandiri vəzifəsində idim. Füzuli istiqamətindən döyüşə girdik. Orada iki dəfə “BTR”lə minaya düşdüm, amma yenə irəli hərəkət etdik. Komandir ərazini müşahidə edib qabaqda erməni postu olduğunu dedi. Komandir mənə tapşırıq verdi və əmr etdi ki, erməni postunu aşkar edib dağıdım. Mən də aşkar etdim və 5-6 erməni hərbçisi olan posta 8 ədəd top atdım, oranı dağıtdım.



Komandir “Eldar, əhsən sənə, gözəl vurdun, inşAllah qayıdanda bunun mükafatını alacaqsan”, - dedi. Mən də sevindim, qürurlandım. Sən demə, artıq biz də erməni hədəfinə tuş gəlmişik. Bir neçə saniyədən sonra bizim tankı vurdular.

Bir maşında 9 heyət idik, onlardan 8-i yaralandı, biri şəhid oldu. Hamısı ağır xəsarətlərlə sağ qaldı. Onu heç vaxt unutmaram: komandirim Əli Babayev deyirdi ki, şəhid olacağıq, mən də ona “Bizim hələ irəlidə cox xidmətimiz olacaq, komandir”, - deyirdim, zarafatlaşırdıq... Ən böyük acımız leytenant Əli Babayev oldu. Bir-birimizə söz vermişdik ki, döyüşə bir yerdə girib, oradan bir yerdə çıxacağıq...

Texnikamız vurulanda hamımız dərhal ondan uzaqlaşdıq, mən də səngərə girdim. Tankdan çıxan heyətin hamısı səngərdə idi. Gördüm ki, üç nəfər yoxdur. Tez yanan tanka tərəf qaçdım. İki nəfəri maşında tüstü boğmuşdu, onları kənara çıxardım. Maşın yanırdı. Sonra yanan texnikanın üstünə qalxıb, komandiri xilas etmək istədim. Amma gordüm ki, komandir artıq yoxdur... Şəhid olmuşdu. “BTR”ə girib onu çıxarmaq istəyəndə ağır xəsarətlər almışdım. Ayaqlarımın altı, üz nayihəmin hamısı yanmışdı. Əlini elə görəndə özümün yaralarını unutdum. Həmin vaxt özümü tankdan yerə atıb, səngərə qayıtdım. Bir neçə dəqiqədən sonra ağrılar başladı. Hərəkət edə bilmirdim. Bir neçə saat sonra məni çıxarmaq üçün təxliyə gəldi.

Təxliyə olunan zaman ermənilərin atdığı artilleriya mərmisi yaxınlığımıza düşdü və məni qaldırıb minalanmış əraziyə atdı. Bu, üçüncü dəfə idi ki, minaya düşürdüm. Sürünüb oradan çıxdım. Hamı əlini məndən üzmüşdü. Düşünürdülər ki, məni oradan çıxara bilməyəcəklər, şəhid olacağam. Amma Allah imkan yaratdı, çıxdım... Yaralıları oradan Füzuli rayonunun Zovcuq qəsəbəsinə gətirdilər.

...Artıq axşam idi. Polis əməkdaşlarından telefon istədim, yanan paltarımın içindən nömrə çıxarıb qardaşıma zəng etdilər, amma telefonu götürmədi. Anamın telefonunu yığdılar, qonşu acdı. Cavab verdilər ki, Ruqiyyə xalanın oğlu şəhid olub, ona görə vəziyyəti pisləşib. Sən demə, kənddə mənim şəhid olmağım xəbərim yayılıb. Tək anam yox, rayon elə bilirdi ki, şəhid olmuşam. Gücümü toplayıb, anamla danışdım: “Mənəm, oğlun Eldar, mən sağam”. Anam inanmadı, elə bilirdi ki, kimsə ona ürək-dirək verir. Anam məndən atamın adını, nə vaxt və neçə yaşında rəhmətə getdiyini soruşdu. Mən dedim. Kədər, göz yaşı sevinc göz yaşları ilə əvəz olundu...

Gecəyarı bizi Saatlı Rayon Mərkəzi Xəstəxanasına gətirdilər. Zovcuq qəsəbəsini erməni artilleriyası vururdu ki, yaralılar ölsün. Neçə ay ayrı-ayrı xəstəxanalarda müalicə aldım.

**_- Birgünlük antiterror əməliyyatını 27 sentyabr müharibəsinin davamı kimi müqayisə etsək, erməni silahlı birləşmələri bu dəfə nə dərəcədə dirəniş göstərdi və bu gün Azərbaycan əsgərinin düşmənə sözü nədir?_**

- Zatən, onların heç vaxt güçü olmayıb. Onlar hər zaman kiminsə arxasında gizlənib, kiminsə köməyi ilə başqasının haqlarını pozmağa öyrəşiblər. 27 sentyabr müharibəsi zamanında olduğu kimi, dığaların bu dəfə də muzdlu köməkçiləri var idi. Amma üzərimizə kim gəlirsə-gəlsin, Azərbaycanın hər bir əsgəri bir qəhrəmandır. Azərbaycan əsgəri öz torpağını terrorçulardan qorumaq üçün canını belə verməyə hazırdır və bunu da edib. Ona görə də birgünlük döyüş öz böyük nəticəsini verdi. Düşmən ağ bayraq qaldırdı. Azərbaycan əsgəri daim ayıq-sayıqdır. Qarşısındakı düşmən şərəfsiz, ləyaqətsiz işğalçıdır.

Biz düşmən üzərindəki qələbəmizi, birgünlük uğurumuzu elə oğulların qanı bahasına qazandıq ki, onların hər biri haqqında qəhrəmanlıq dastanı yazıla bilər və yazılmalıdır. Mən bu gün onlardan yalnız 27 Sentyabr döyüşlərində şəhid olan komandirim Əli Babayevin adını çəkdim. Biz o igidlərin, əsgər yoldaşlarımızın Vətəni azad, terrorsuz görmək arzularını axıra qədər yerinə yetirməyə söz vermişik. Hər an, hər dəqiqə Ali Baş Komandanın əmrindəyik. Torpaqlarımızda tam sülh, əmin-amanlıq bərqərar olunana qədər döyüşməyə hazırıq. Düşmən yenə bizim torpaqlarda xəyanətə əl atarsa, öz cəzasını almalıdır. 27 sentyabrda, 19 sentyabrda ermənilərin Xocalıda törətdiyi soyqırımın, qətliamın qisasını düşmənin hər həmləsində təkrar-təkrar aldıq.

**_- Bir əsgər, bir oğul kimi, Vətən qarşısında öz borcunu, verdiyin sözü yerinə yetirdin..._**

- Mən 2023-cü il 19 sentyabr döyüşünə qatılanda Allahın izni ilə bu dəfə ailəmə verdiyim sözü tutdum. Ailənin tək ümid yeri mənəm, hamıya söz verdim ki, sağ-salamat qayıdacağam, qayıtdım...

27 sentyabr tarixi hər kəsin yaddaşındadır. Hər zaman təəssüf edirdim ki, heyf ki, tez yaralandım, Xocalının, torpaqlarımızın heyfini az aldım. Amma birgünlük əməliyyatda heyfimi çıxdım. Yenə də özümdən narazıyam. Erməni terrorçuları bir nəfərədək torpaqlarımızdan təmizlənməlidir. Mən bu dəfə yaralanmadım. O səs-küy məni bir az da silkələdi. Keçən dəfə onlara verə bilmədiyim cavabı bu dəfə verdim. 44 günlük müharibədə ürəyimdə yarımçıq qalan qisasımı birgünlük antiterror əməliyyatında layiqincə aldım... Yanımda yaralanan və şəhid olanlar cox oldular. Yenə də ayaqlarımızın üstündə durmağı bacardıq. Üzüldük, qırılmadıq...

Birgünlük antiterror əməliyyatına texniki heyətlə qoşulmuşdum. Bu dəfə düşmənə daha ağır zərbə ilə acı yaşatmağa çalışdım.

Məncə, uğurlu alındı. Verilən tapşırıqları 24 saat ərzində layiqincə yerinə yetirdik. Bu dəfə texnikadan top mərmisi ataraq erməni postunu qara dumana çevirdim. Daha sonra texnikadan ayrıldım. Əsgərlərimiz hücuma keçməli idi və keçdilər də. Güclü ordumuz, torpaqlarımızı qorumağa, hər qarışını düşməndən təmizləməyə hünərimiz var. Hazırda Xocavənd istiqamətində fəaliyyətimiz davam edir.

II Qarabağ qazisi kimi 5 medala layiq görüldüm. “Füzulinin azad olması” medalı, “Cəbrayılın azad edilməsi” medalı, “Xocavəndin azad olunması” medalı, “Xidmətdə fərqləndiyinə görə” III dərəcəli medalı və “Veteranlıq” medalı ilə təltif olunmuşam.

**_- 27 sentyabr və 1 günlük döyüşlər zamanı şəhidlər verdik, döyüş yoldaşlarınızı itirdiniz. Təsəlliniz nə oldu?_**

- Biz onunla təsəlli tapırıq ki, döyüş dostlarımızın qanını yerdə qoymadıq. Şəhid ailələri ilə görüşürük. Ayrı-ayrı rayonlarda dəfn olunan şəhidlərimizi ziyarət edirik. Biz onları ziyarət edərkən kədər hissi ilə yanaşı, bir qürur hissi də keçiririk. Şəhidlər ölməzdir, müqəddəsdir.

Döyüşə Vətən uğrunda şəhid olmağa getmişdik. Biz də o yüksəkliyə çatmağı istəmişdik. İndi şəhid dostlarımız həmin zirvədədir. Bizim üçün kədərli olan odur ki, dostlarımız aramızda deyil. Hər kəs də o zirvəyə ucala bilmir. Heç nəyi unutmaq olmaz. Oradakı gördüyümüz bir anı belə danışmaq üçün bir ömür yetməz. Ürəyimizdə nə qədər dost itkisinin üzüntüsünü yaşasaq da, bu gün qürur hissi keçiririk. Düşməni təslim etdik.

✍ *Tahirə*

# Banklar vətəndaşları aldada bilməyəcək

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilən “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası qanununun layihəsinin qəbul edilməsi banklar tərəfindən qiymətləndirmə aparılan zaman vətəndaşın əmlakın aşağı qiymətləndirilməsi və satışa çıxarılma zamanı da aşağı qiymətlərlə satılmasının qarşısını alacaq.**

Bunu Trend-ə Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O qeyd edib ki, qanun layihəsi qiymətləndirmə sahəsində yeni meyyarları nəzərdə tutur.

“Layihənin əsas üstünlüklərindən biri əmlakın qiymətləndirilməsində müstəqillik və obyektivliyin daha da gücləndirilməsi və bununla bağlı institutsional islahatların həyata keçirilməsindən ibarətdir. Qanun layihəsinin qəbul edilməsi əmlakın daha doğru və bazar qiymətlərinə uyğun dəyərləndirilməsinə imkan verəcək.




Bu xüsusən də son dövrlər daha aktuallaşmış və bu sektorda əsas çətinliklərdən birinə çevrilən banklarla vətəndaşlar arasındakı mübahisələrin kəskin şəkildə azalmasına gətirib çıxaracaq. Nəzərə alsaq ki, qanun layihəsinin qəbul edilməsi əmlakın yeni meyyarlarla qiymətləndirilməsinə imkan verəcək, nəticədə banklar tərəfindən bu kontekstdə vətəndaşların aldadılması və ya əmlakın girov kimi daha aşağı qiymətləndirilməsi və ya satışa çıxarılan zaman daha ucuz qiymətə satılmasının qarşısını alacaq. İndi əsas problemlərdən biri banklar tərəfindən qiymətləndirmə aparılan zaman əmlakın aşağı qiymətləndirilməsi və satışa çıxarılma zamanı da aşağı qiymətlərlə satılmasıdır. Ona görə də gözlənilir ki, qanunun qəbul edilməsi banklar və vətəndaşlar arasında uzun müddətdir müşahidə edilən ənənəvi problemlərdən birinin həllinə gətirib çıxara bilər”, - deyə deputat əlavə edib.

Qeyd edək ki, qanun layihəsi sentyabrın 25-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilərək parlamentin plenar iclasına tövsiyə edilib.



**Aktual**

# Maaş və pensiyalar nə qədər artacaq?

**_2024-cü ilin dövlət büdcəsinin gəlirləri 33 milyard 765 milyon manat, xərcləri 36 milyard 355 milyon manat, kəsiri 2 milyard 590 milyon manat nəzərdə tutulur._**

> “
>
> *Növbəti yanvardan etibarən bütün növ əmək pensiyaları indeksikasiya olunaraq artırılacaq*

> *Minimun əmək haqqının artırılması və bütövlükdə sosial təminatın gücləndiirlməsi sosial siyasətin əsas prioritetlərindəndir*

Funksional təsnifat üzrə 2024-cü ildə iqtisadi fəaliyyət xərclərinə 7 milyard 380 milyon manat (xüsusi çəkisi 20,3 faiz), ümumi dövlət xidmətləri üzrə xərclərinə 4 milyard 814,9 milyon manat (xüsusi çəkisi 13,2 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 6 milyard 421 milyon manat (xüsusi çəkisi 17,7 faiz), səhiyyə xərclərinə 1 milyard 871,3 milyon manat (xüsusi çəkisi 5,2 faiz), sosial müdafiə və sosial təminat üzrə xərclərinə 4 milyard 542,2 milyon manat (xüsusi çəkisi 12,5 faiz), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərinə 2 milyard 956,7 milyon manat (xüsusi çəkisi 8,1 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 5 milyard 74,8 milyon manat (xüsusi çəkisi 1,6 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərinə 1 milyard 392,7 milyon manat (xüsusi çəkisi 3,8 faiz), mənzil və kommunal təsərrüfatı üzrə xərclərinə isə 364,8 milyon manat (xüsusi çəkisi 1,0 faiz) vəsait yönəldilməsi proqnozlaşdırılır.

Eyni zamanda 2024-cü ildə Azərbaycanda əhalinin nominal gəlirləri 84,1 milyard manat, nominal xərcləri isə 81,4 milyard manat proqnozlaşdırılıb. Bu isə 2023-cü illə müqayisədə müvafiq olaraq 8,3 faiz və 8,6 faiz çoxdur. Gələn il həmçinin, orta aylıq əməkhaqqı 980 manat proqnozlaşdırılıb. Bu isə 2023-cü il üzrə müəyyən edilən göstəricidən 5,4 faiz çoxdur.

Yeri gəlmişkən, qarşıdakı illərdə Azərbaycanda ortaaylıq əməkhaqqının hansı templə artacağı məlum olub. İqtisadiyyat Nazirliyinin hazırladığı yeni proqnoza əsasən, bu ilin sonunda ortaaylıq əməkhaqqı 930 manat təşkil edəcək. Ortaaylıq əməkhaqqının məbləği gələn il 980 manata, 2025-ci ildə 1038 manata, 2027-ci ilin sonunda isə 1153 manata çatacaq. Əməkhaqqının artım göstəriciləri hesablanan zaman ÜDM-in nominal həcminin 2023-cü ildəki 120 milyard manatdan 136 milyard manata qədər, dövlət büdcəsinin xərclərinin 36,6 miyard manatdan 40 milyard manata qədər artacağı, illik inflyasiyanın isə 9,5 faizdən 4,2 faizə qədər azalacağı ehtimalı nəzərə alınıb.

Eyni zamanda nəzərə alınıb ki, Azərbaycanın ixrac etdiyi neftin qiyməti 60 dollar olacaq.Əgər qarşıdakı illərdə neftin ixrac qiyməti 60 dollardan çox yüksək olarsa, iqtisadiyyatda yaradılan əlavə dəyərin həcmi daha çox artarsa, eyni zamanda inflyasiya səviyyəsi daha da aşağı düşərsə, o zaman maaşlardakı artım sürəti bir qədər də yüksələcək.

Qeyd edək ki, 2023-cü ilin avqustun 1-də ortaaylıq əməkhaqqı 925 manat olub. Bundan bir ay əvvəl orta əməkhaqqı 922 manat, üç ay əvvəl isə 900 manat idi. İlin sonunda orta maaş məbləğinin proqnoz məbləğdən bir qədər yüksək olması gözlənilir.

Bəs, görəsən, yeni ildən maaş və pensiyalarda nə qədər artım gözlənilir? 2024- cü ildə minimum əmək haqqında artım baş verə bilərmi?

■ **Mövzu ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib ki, gələn ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat üzrə xərclərdə artım nəzərdə tutulub:**

“Bu, 2024-cü ildə sosial təminatın daha da güclənəcəyindən xəbər verir. Belə ki, gələn il birbaşa sosial müdafiə və sosial təminat xərcləri 5 faiz artırılaraq 4 milyard 542 milyon manata çatdırılacaq. Bu rəqəm birbaşa sosial xərclərdir. Bütövlükdə sosial istiqamətli xərclər isə 36 milyard 355 milyon manatlıq büdcə xərclərinin 45 faizindən çoxunu təşkil edəcək. Sosial istiqamətdə daha çox vəsaitlərin nəzərdə tutulması gələn il sosial proqramlara ayrılan vəsaitin artırılacağından xəbər verir. Növbəti yanvardan etibarən bütün növ əmək pensiyaları indeksikasiya olunaraq artırılacaq. Digər sosial istiqamətlərdə də təminatın güclənəcəyi gözlənilir”.

Yeni ildə minimum əmək haqqında artım gözlənilib-gözlənilmədiyinə gəlincə, millət vəkili qeyd edib ki, minimum əmək haqqının artırılması və bütövlükdə sosial təminatın gücləndiirlməsi sosial siyasətin əsas prioritetlərindəndir: ”2023-cü ilin yanvarından minimum əməkhaqqı 345 manata qədər artırıldı. İlk dəfə olaraq minimum əməkhaqqı 200 dollarlıq həddi keçdi. Son 4 ildə Azərbaycanda minimum əməkhaqqı 2,9 dəfə artırılıb.

Ümumiyyətlə sosial təminatın gücləndirilməsi sosial siyasətin əsas səbəblərindəndir. Bu səbəbdən 2024-cü ildə də sosial paketin genişləndirilməsi və sosial proqramlara daha çox vəsaitin ayrılacağını gözləyirik”.

✍ *Sevinc*

# Minimum istehlak səbətinin real dəyəri

**_Azərbaycanda yaşayış minimumun məbləği həmişə müzakirə mövzusu olub. Əksər ekspertlər hesab edirlər ki, ölkə üzrə təsdiqlənən yaşayış minimumu mövcud reallığı əks etdirmir. Xüsusilə son illər müşahidə olunan ciddi inflyasiya fonunda yaşayış minimumu bazar qiymətlərinə adekvat sayılmır. 2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilib._**



## Sosial

Məlumat üçün bildirək ki, yaşayış minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır. Minimum istehlak səbəti insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilən toplusudur.

Bu səbəbdən də istehlak məhsullarının (ərzaq və qeyri-ərzaq malları) və xidmətlərin qiymətindəki artımlar (inflyasiya) minimum istehlak səbətinin dəyərini də artırır. Bildiyimiz kimi, ölkədə minimum istehlak səbətinin tərkibi sonuncu dəfə Nazirlər Kabinetinin 6 iyun 2014-cü il tarixli qərarı ilə müəyyən edilib. Həmin qərara görə, əmək qabiliyyətli bir adam üçün il ərzində 136,8 kiloqram çörək və çörək məhsulu nəzərdə tutulub. Hazırda yarım kiloqramlıq çörəyin qiymətinin isə 0,50 qəpikdən az olmadığını nəzərə alsaq (çörək məhsullarının qiyməti daha yüksəkdir) çörək və çörək məhsulu üçün əmək qabiliyyətli bir adama il ərzində ən azı 68,4 manat, ay ərzində isə 5,7 manat pul lazımdır.

Çörək və çörək məhsulundan başqa minimum istehlak səbətinin tərkibində əmək qabiliyyətli bir adamın illik istehlakı üçün 54,8 kiloqram kartof (ayda 4,5 kq), 97,2 kiloqram tərəvəz və bostan məhsulları (ayda 8,1 kq), 38 kiloqram meyvə və giləmeyvə (ayda 3,2 kq), 32,9 kiloqram ət və ət məhsulları (ayda 2,7 kq), 223,6 kiloqram süd və süd məhsulları (ayda 18,6 kq), 7,7 kiloqram balıq və balıq məhsulları (ayda 0,64 kq), 150 ədəd yumurta (ayda 12,5 ədəd), 10,9 kiloqram bitki yağı və marqarin (ayda 0,91 kq), 7 kiloqram kərə yağı (ayda 0,58 kq), 16,9 kiloqram şəkər və qənnadı məmulatları (ayda 1,4 kq), həmçinin 4,7 kiloqram (ayda 0,39 kq) çəkidə digər ərzaq məhsulları nəzərdə tutulur.

> “
>
> *Minimum istehlak səbətimiz müəyyən istiqamətlər üzrə beynəlxalq qəbul edilmiş standartlardan, dərəcələrdən aşağıdır*
>
> *İddia olunmur ki, bir adamın aylıq 200 manatla yaşaması mümkündür*

Mövcud qiymətlər ilə hesabladığımız zaman məlum olur ki, əmək qabiliyyətli bir adam ay ərzində kartof üçün ən azı 5,40 manat, ət və ət məhsulları üçün 45 manat, süd və süd məhsulları üçün təqribən 64 manat, balıq və balıq məhsulları üçün 7,68 manat, yumurta üçün 2,5 manat, bitki yağı və marqarin üçün 6,96 manat, kərə yağı üçün 9,86 manat, şəkər və qənnadı məmulatları üçün 7 manat, digər ərzaq məhsulları üçün isə 3,20 manat xərcləməlidir. Ümumilikdə isə əmək qabiliyyətli bir adam ay ərzində yaşayış minimumunda nəzərdə tutulan vəsaitin 60 faizdən çoxunu ərzaq məhsullarına xərcləməlidir. Yerdə qalan 40 faizlə isə bir nəfər həm qeyri-ərzaq məhsullarına, həm də xidmətlərə olan ehtiyacını qarşılamalı və eyni zamanda da icbari ödənişlərini reallaşdırmalıdır.

Bu isə indiki qiymətlərlə real görsənmir. Yeri gəlmişkən, bir məqama diqqət yetirək: minimum istehlak səbətində nəzərdə tutulub ki, əmək qabiliyyətli bir adam ildə minimum 692 dəfə (ayda 57 dəfə) ictimai nəqliyyatdan istifadə etməlidir ki, bu da ay ərzində 22,8 manat deməkdir. Onu da xatırladaq ki, minimum istehlak səbətinin tərkibində qeyri-ərzaq malları üçün müəyyən edilən normalara görə, əmək qabiliyyətli bir adam ən azı 8 ildə 3 palto tipli üst geyimi, 4 il 2 ayda 9 kostyum tipli paltar, 2 il yarıma 9 alt geyimi, ilyarıma 7 cüt corab, 5 ilə 4 ədəd baş geyimi (papaq və ya baş örtüyü), 3 il yarıma 6 cüt ayaqqabı, 7 ildə 11 yataq dəsti, 1 ildə 3 yazı ləvazimatı və digər mallardan istifadə etməlidir.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Eyyub Kərimli bildirib ki, minimum istehlak səbəti anlayışı bir qədər mücərrəd anlayışdır:** “Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilən istehlak səbətinin strukturuna baxanda və müqayisəli təhlil apara görərik ki, səbətə daxil olan bəzi məhsullar üzrə bəzi ölkələrdən öndə, bəzi məhsullar üzrə geridəyik. Yəni, minimum istehlak səbətimiz müəyyən istiqamətlər üzrə beynəlxalq qəbul edilmiş standartlardan, dərəcələrdən aşağıdır. Amma onu da qeyd etmək istəyirəm ki, minimum istehlak hər adambaşına götürüldüyü üçün gələn il də buna yenidən baxılacaq. Burada sözsüz ki, inflyasiyanın təsirləri də nəzərə alınmalıdır. Düşünürəm ki, reallıqla müqayisədə fərqlər var və əlbəttə ki, bu fərqlər aradan qaldırılmalıdır”.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirib ki, mövcud istehlak səbəti reallıqla müqayisədə ciddi fərq yaradır:**

“Bu fərq təxminən 2-3 dəfəyə yaxındır. Amma məsələ burasındadır ki, Azərbaycan hökuməti hesab edir ki, bu məcmu dövlət büdcəsinin imkanlarının çatdığı qədər formalaşıb. Yəni, iddia olunmur ki, bir adamın aylıq 200 manatla yaşaması mümkündür. Lakin məsələ ondadır ki, Azərbaycan dövlət büdcəsinin imkanları insanların yaşayışının yalnız o hissəsini ödəməyə hədəflənir. Əslində, tutaq ki, 400-600 manata bir nəfərin aylıq yaşayış minimumu dəyərləndirilməlidir.

Amma Azərbaycan hökuməti onu dəyərləndirib indiki real büdcə ilə həmin ehtiyacları örtə bilmədiyinə görə yalnız örtə biləcəyi hissəni elan edir. Bu o demək deyil ki, Azərbaycan hökumətinin elan etdiyi minimum istehlak səbətindən Azərbaycan vətəndaşı bir ay dolana bilər, bu o anlama gəlmir. Amma əslində Azərbaycan hökuməti Avropa Konvensiyasına qoşulub və Avropa Konvensiyasında vətəndaşların normal həyatının təmin edilməsi barədə öhdəlik götürüb”.

✍ *Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin BƏYANATI



“Hazırda Ermənistan Xocalı soyqırımının bədəlini ödəyir və ödəyəcək”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. “Çünki 1 milyon azərbaycanlı Xocalıdan və digər şəhərlərdən qovulub. Azərbaycan bundan 10 illər sonra bu qətliamın qisasını çox fərqli şəkildə aldı və torpaqlarını geri qaytardı. İndi Xocalıda kimlər var? Xocalının əsl sahibləri. Azərbaycan ordusu Xocalıya xaos, qan və ölüm deyil, əmin-amanlıq və sülh gətirmək üçün girdi. İllər əvvəl erməni dəstələrinin girdiyi kimi girmədi. İnsanları qətl etmək üçün girmədi. Azərbaycan Xocalıya layiq olduğu sülh və əmin-amanlığı təmin etmək üçün girdi.

### Həftənin CƏZALISI



“Qəbələ”nin doğma meydanda “Qarabağ”ı qəbul etdiyi oyunda hakim iki rəsmi şəxsi stadiondan qovub.

Əvvəlcə 42-ci dəqiqədə “Qəbələ”nin məşqçisi Rasim Ramaldanov “qırmızı” alıb. Daha sonra isə “Qarabağ”ın baş məşqçisi, təmkini ilə seçilən Qurban Qurbanov karyerasında ikinci dəfə qırmız vərəqə görüb. O, hakimlərin qərarına etiraz etdiyi üçün Elçin Məsiyevin qəzəbinə tuş gəlib.

### Həftənin RÜŞVƏTXORU



ABŞ Konqresindəki ermənipərəst senator Bob Menendez Nyu-Yorkda məhkəməyə çıxarılır. B.Menendez pul və qızıl külçələr şəklində rüşvət almaqda ittiham edilir. Xatırladaq ki, ermənipərəst senator Fred Daibes adlı tərtibatçıdan 400 min dollar dəyərində qiymətləndirilən qızıl külçələr götürməkdə təqsirləndirilir. Daibesin federal bank ittihamları ilə üzləşdiyi üçün Menendezə rüşvət verdiyi bildirilir. Həmkarları onun Konqresdən istefa etməsi ilə bağlı çağırışlar edib.

### Həftənin HƏDƏSİ



Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev ölkəsinin NATO ilə birbaşa münaqişədən başqa yolu olmadığını bildirib. O bu barədə sosial şəbəkə hesabında yazıb. Medvedev qeyd edib ki, Moskvanın artıq Hitler oxu kimi açıq faşist blokuna çevrilmiş NATO ilə münaqişədən başqa yolu yoxdur: “Biz hazırıq, baxmayaraq ki, nəticə bəşəriyyət üçün 1945-ci ildəkindən qat-qat baha başa gələcək”, - deyə Medvedev vurğulayıb.

### Həftənin ETİRAZÇISI



ABŞ Prezidenti Co Bayden 26 sentyabr avtomobil işçilərinin aksiyasında qısa, lakin tarixi çıxış edib. Bu haqda Ağ Ev məlumat yayıb.

Qeyd olunur ki, Bayden etiraz aksiyası sıralarında iştirak edən ilk ABŞ lideri olub. Siyasətçinin aksiyadakı çıxışı bir neçə dəqiqə çəkib. Ağ Ev Baydeni “müasir tarixin ən yaxşı həmkarlar ittifaqı tərəfdarı” adlandırıb.

### Həftənin ŞÜBHƏLİSİ



Dünyaşöhrətli müğənni Şakira yenidən İspaniyada vergi fırıldaqçılığında şübhəli bilinir.

İspaniya Prokurorluğu kolumbiyalı müğənnini 2018-ci ildə 6 milyon avrodan çox vergidən yayınmaqda şübhəli bilir. Mənbənin məlumatına görə, dövlət strukturları ulduzun ofşor zonalarda yerləşən şəbəkədən istifadə edərək maxinasiyalar etdiyini güman edir.

✍ *Azad Əliyev*



# “Nar”ın bölgələr üçün “Yerlim+” tarifi ® ikiqat sərfəli oldu!

**Azərbaycanın bölgələrində “Nar”a qoşulmaq istəyən abunəçilər üçün “Yerlim+” tarifinin ilk abunə haqqı indi cəmi 2 AZN oldu! Bölgələrdə yaşayan abunəçilər “Yerlim+” tarifinə qoşulmaqla bütün ölkə ilə dəqiqəsi cəmi 5 qəpikdən danışa bilər.**

“Yerlim+” tarifi çərçivəsində abunəçilərə bonus olaraq 100 dəqiqə ölkədaxili danışıq dəqiqələri, 300 MB internet və ödənişsiz “WhatsApp” yazışması təqdim edilir. Bölgələrdəki abunəçilər yeni “Nar” nömrəsini “Yerlim+” tarifində əldə etdiyi halda ilk ayın abunə haqqına 50% endirim əldə edir.

Xatırladaq ki, tarifin standart abunə haqqı aylıq 4 AZN-dir. Dəqiqələrə görə məbləğin hesablanması isə yalnız tarifin dəqiqə bonusları bitdikdən sonra aparılır. “Yerlim+” tarifi haqqında ətraflı: nar.az/yerlim-plus/ <https://www.nar.az/yerlim-plus/>




“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


## GÜNÜN FOTOSU



Bir il sonra Dünyaya qayıtdılar

“

## Maaş və pensiyalar nə qədər artacaq?

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Növbəti yanvardan etibarən bütün növ əmək pensiyaları indeksikasiya olunaraq artırılacaq.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **Bu günə qədər İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 47 007 borcalana 2 milyard 802,6 milyon manat kredit verib.**

Bundan başqa, indiyə qədər 377,754 milyon manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 4 005 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib. Xatırladaq ki, İKZF 2017-ci ilin sonunda “Azərbaycan İpoteka Fondu” və “Kredit Zəmanət Fondu” ASC-lərin birləşməsi nəticəsində yaradılıb və onların hüquqi varisidir.



▸▸ Səh. 6

# İqtisadi fəaliyyət xərcləri azaldılır